# RİYAZİYYAT

# METODİK VƏSAİT

# 2




LAYİHƏ

**Süleyman Kərimov, Könül Doxolova**
**Yeganə Məmmədəliyeva, Həbib Kərimov**
**Aygün Qasımova, Farizə Nəbiyeva**

Xüsusi məktəblərin
2-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# RİYAZİYYAT

**fənni üzrə dərsliyin**
## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*chashioglu@gmail.com* və *derslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ÇAŞIOĞLU

LAYİHƏ

# MÜNDƏRİCAT


**1.** Həndəsi fiqurlar və rənglər ........ 2 saat səh. 5-6

**2.** Ölçmə........ 2 saat səh. 7

**3.** Zaman və məkan anlayışı ........ 3 saat səh. 8

**4.** 1, 2, 3 ədədləri ........ 1 saat səh. 10

**5.** Toplama əməli ........ 1 saat səh. 11

**6.** Çıxma əməli ........ 1 saat səh. 12

**7.** 0 ədədi ........ 1 saat səh. 13

**8.** 2 + 0 və 2 – 0 şəklində misallar ........ 1 saat səh. 13

**9.** Əvvəlki ədəd ........ 1 saat səh. 15

**10.** Növbəti ədəd ........ 1 saat səh. 16

**11.** Ədədlərin müqayisəsi ........ 1 saat səh. 17

**12.** 1 – 5 ədədləri ........ 1 saat səh. 18

**13.** ■ + 1 + 1 şəklində misallar ........ 1 saat səh. 19

**14.** 1 – 6 ədədləri ........ 3 saat səh. 20

**15.** 1 – 7 ədədləri ........ 2 saat səh. 21

**16.** 1 – 8 ədədləri ........ 6 saat səh. 23

**17.** 1 – 9 ədədləri ........ 6 saat səh. 25

**18.** 1 – 10 ədədləri........ 5 saat səh. 27

**19.** Onluq ........ 2 saat səh. 28

**20.** 11 ədədi ........ 10 saat səh. 29

**21.** Kütlə vahidi – kiloqram. ........ 4 saat səh. 32

**22.** 12 ədədi ........ 9 saat səh. 33

**23.** Həftə, ay, fəsil, il ........ 2 saat səh. 36


LAYİHƏ

**24.** 13 ədədi ........ 10 saat səh. 37

**25.** Birrəqmli və ikirəqəmli ədədlər ........ 1 saat səh. 39

**26.** 14 ədədi ........ 10 saat səh. 40

**27.** Toplama əməlinin komponentləri ........ 2 saat səh. 43

**28.** Toplamanın yerdəyişmə xassəsi ........ 2 saat səh. 44

**29.** 15 ədədi ........ 9 saat səh. 45

**30.** Tutum vahidi. Litr ........ 3 saat səh. 47

**31.** 16 ədədi ........ 9 saat səh. 48

**32.** Uzunluq vahidi - santimetr (sm)........ 2 saat səh. 50

**33.** 17 ədədi ........ 9 saat səh. 51

**34.** Zaman vahidi - saat ........ 4 saat səh. 54

**35.** 18 ədədi ........ 9 saat səh. 55

**36.** Çıxma əməlinin komponentləri ........ 4 saat səh. 58

**37.** 19 ədədi ........ 9 saat səh. 59

**38.** 20 ədədi ........ 9 saat səh. 61

**39.** Təkrar ........ 7 saat səh. 63


LAYİHƏ

## GİRİŞ

Xüsusi məktəblərin 2-ci sinifləri üçün təqdim olunan dərslik komplekti yüngül və orta intellekt məhdudiyyəti olan şagirdlər üçün nəzərdə tutulub və 3 kitabdan ibarətdir: dərslik, iş dəftəri və müəllimlər üçün metodik vəsait. Dərslik və iş dəftəri elə qurulub ki, dərslikdə öyrənilən mövzular iş dəftərindəki çalışmalarla əhatə olunur və tamamlanır.

Dərslik 2 bölmədən ibarətdir.

I bölmə 1-ci sinifdə keçilənlərin təkrarını əhatə edir. Şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini nəzərə alıb keçilənlərin təkrarına geniş yer ayırmaq lazımdır. Bu zaman riyazi anlayışlar, 1-dən 10-a qədər ədədlər təkrar olunur.

II bölmə 11-20 ədədlərini və ölçmə əməliyyatlarını əhatə edir. Dərsliyə daxil edilən çalışmalar sadədən mürəkkəbə doğru prinsipi əsasında tərtib edilmişdir ki, bu da "A" və "B" kateqoriyalarında olan uşaqların səviyyələrinə uyğundur. Bu kateqoriyalara aid olan intellekt məhdudiyyətli şagirdlər qoyulmuş problem ətrafında fərdi və ya qrup şəklində tədqiqat aparmaqla onun həlli yollarını tapa bilərlər. Bu prosesdə müəllimin əsas vəzifəsi sinifdə məqsədyönlü şəkildə işgüzar mühit yaratmaq, bilik və bacarıqların əldə olunmasında şagirdlərə bələdçilik etməkdir.

### MÜƏLLİM

- dərsi təşkil edir;
- problem-situasiya yaradır;
- tədqiqat işinin qoyuluşundan asılı olaraq istiqamətlər verir;
- problemin həllində metodik kömək göstərir;
- bilik və bacarıqların müstəqil şəkildə əldə olunması yollarını öyrədir.

İntellekt məhdudiyyəti olan şagirdlər üçün təlim prosesində təhsilin humanistlik prinsipi daha çox gözlənilməlidir: "Hər uşağın riyaziyyata maraq və meyilləri, fiziki və zehni imkanları, psixoloji xüsusiyyətləri təlim prosesində maksimum nəzərə alınmalı, onun istəyinə və imkanlarına görə diferensiasiya aparılmalıdır. Uşaq şəxsiyyət hesab edilməli, tədris prosesində müəllimlə bərabər hüquqlu, ümumi məqsədi eyni olan, lakin funksiyaları arasında müvafiq sərhəd qoyulmuş subyekt kimi götürülməlidir. Hər hansı formada, istənilən situasiyada uşağın şəxsiyyətinin alçaldılmasıa yol verilməməlidir. İntellekt məhdudiyyətli uşaqlara daha çox mənəvi–psixoloji kömək göstərilməli, humanitar qayğı artırılmalıdır."

### İŞ DƏFTƏRİ

Dərslikdə keçilən mövzuları şagirdlərin daha dərindən mənimsəməsi üçün verilən tapşırıqları əhatə edir. Qazanılmış bilik və bacarıqların möhkəmləndirilməsi, praktik vərdişlərin formalaşdırılması üçün iş dəftəri xüsusi əhəmiyyət kəsb edir.

LAYİHƏ

# BİRİNCİ SİNİFDƏ KEÇİLƏNLƏRİN TƏKRARI

## Mövzu: Həndəsi fiqurlar və rənglər

**DƏRS 1**

**Təlim məqsədləri:**

**1.** Şagird həndəsi fiqurları: kvadrat və dairəni tanıyır, göstərir.

**2.** Əsas rəngləri tanıyır və göstərir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| Deduktiv | Fərdi iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Oyun xəmiri, kartondan həndəsi fiqurlar, say çöpləri | Həyat bilgisi, nitq inkişafı, |

**Motivasiya.** Müəllim şagirdlərə kağızdan düzəldilmiş qırmızı rəngli kvadrat və göy rəngli dairə təqdim edir. Şagirdlərdən həndəsi fiqurların hər birini göstərib, adlarını və hansı rəngdə olmalarını deməyi xahiş edir. M: “Bu, hansı həndəsi fiqurdur? “(De: Bu, dairədir ). M: “Dairə hansı rəngdədir? “(De: Dairə göy rəngdədir). M: “Bu, hansı həndəsi fiqurdur? “(De: Bu kvadratdır). M: “Kvadrat hansı rəngdədir? “(De: Kvadrat qırmızı rəngdədir). Sonra müəllim 4 parça plastilindən və 4 eyni say çöpündən düzəltdiyi kvadratları şagirdlərin partasının üstünə qoyur. Onlardan kvadratları əllərinə götürüb baxmağı, sonra kvadratın tərəflərini plastilindən ayırmağı və eyni ölçüdə olan tərəfləri yan-yana qoymağı xahiş edir. Şagirdlər tapşırığı yerinə yetirirlər və görürlər ki, kvadratın bütün tərəfləri bərabərdir. M: “Kvadratın tərəfləri bir – birindən böyük, kiçik, yoxsa bərabərdir? “(De: Kvadratın tərəfləri bərabərdir). M: "Bu gün biz qırmızı və göy rəngləri, həndəsi fiqurlardan dairə və kvadratı təkrar edəcəyik."

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın. Göy rəngdə olan dairəni və qırmızı rəngdə olan kvadratı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərə iki eyni tipli, eyni rəngdə və müxtəlif formada olan əşya verilir. Onlardan göy rəngli, dairə formasında olan əşyanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın. Göy rəngli dairə formasında olan əşyanı göstərin.

**a)** Göy rəngli karton düzbucaqlı.

**b)** Göy rəngli karton dairə.

**Tapşırıq 2.** Şagirdlərə iki eyni tipli, eyni rəngdə, lakin müxtəlif formalarda əşya verilir. Onlardan qırmızı rəngli kvadrat formasında olan əşyanı göstərmək xahiş olunur.

**Tətbiqetmə:** Dərsliyin 6-cı səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** Həndəsi fiqurlar və rənglər.

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird həndəsi fiqurları: üçbucaq və düzbucaqlını tanıyır, göstərir.

**2.** Əsas rəngləri tanıyır və göstərir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Plastilin, oyun xəmiri, kağızdan hazırlanmış həndəsi fiqurlar | Həyat bilgisi, nitq inkişafı, |

**Motivasiya.** Müəllim lövhədən üzərində sarı rəngli üçbucaq və yaşıl rəngli düzbucaqlı şəkli olan plakat asır. Əlavə olaraq lövhədə üçbucaq və düzbucaqlı şəkillərini çəkir. M: “Bu hansı fiqurdur? “(De: Bu, üçbucaq fiqurudur). M: Üçbucaq fiquru hansı rəngdədir? “(De: Üçbucaq fiquru sarı rəngdədir). Müəllim əlavə edərək bildirir ki, biz kvadrat fiqurunun tərəflərinin bərabər olduğunu bilirik. Üçbucağın isə tərəfləri bir-birinə bərabər olmaya bilər. Sonra müəllim düzbucaqlı fiqurunu göstərib soruşur. M: “Bu hansı fiqurdur? “(De: Bu düzbucaqlıdır ). M: “Düzbucaqlı hansı rəngdədir? “(De: Düzbucaqlı yaşıl rəngdədir). Müəllim 4 parça plastilin və 4 say çöpü ilə düzəltdiyi düzbucaqlıları şagirdlərə təqdim edir. Müəllim şagirdlərə düzbucaqlını əllərinə götürüb baxmağı, sonra isə düzbucaqlının tərəflərini plastilindən ayırıb, bir -birinə bərabər olan tərəfləri yan-yana qoymağı xahiş edir. M: "Düzbucaqlının tərəflərini plastilindən ayırın və bir-birinə bərabər olan tərəfləri yan-yana qoyun". “Şagirdlər işi icra edirlər. M: “Aydın oldu ki, düzbucaqlının qarşı tərəfləri bir-birinə bərabərdir.”

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın, sarı rəngli üçbucağı, yaşıl rəngli düzbucaqlını göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərə eyni tip və eyni formada, iki fərqli rəngdə olan əşya verilir və onlardan sarı rəngdə olan üçbucağı, yaşıl rəngdə olan düzbucaqlını göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sarı rəngli üçbucaq formasında olan əşyanı göstərin.

**a)** Kağızdan hazırlanmış sarı rəngli üçbucaq bayraq.

**b)** Kağızdan hazırlanmış qırmızı rəngli üçbucaqlı bayraq.

**Tapşırıq 2.** Şagirdlərə eyni tipli, lakin müxtəlif formalarda, üç fərqli rəngdə olan əşyalar verilir. Onlardan sarı rəngdə olan üçbucağı və yaşıl rəngdə olan düzbucaqlını göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sarı rəngli üçbucaq formasında olan əşyanı göstərin.

**a)** Qırmızı rəngli taxta kvadrat.

**b)** Sarı rəngli taxta üçbucaq.

**c)** Yaşıl rəngli taxta dairə.

LAYİHƏ

**Tətbiqetmə:** Dərsliyin 7-ci səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: Ölçmə.

### DƏRS 1.

**Təlim məqsədləri:**

**1.** Şagird ölçmə anlayışını və əşyaları müqayisə etməyi bilir.

**2.** Əşyaları fərqləndirir və göstərir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Kitab, dəftər, alma ağacı və şam ağacı şəkli olan plakat, uzun-qısa lentlər | Həyat bilgisi, nitq inkişafı |

**Motivasiya.** Şagirdlərin qarşısına kitab və dəftər qoyulur. Onlardan kitab və dəftərdən hansının qalın, hansının nazik olduğunu göstərmək və demək xahiş olunur. M: "Hansı qalındır?" (Göstər və de: Kitab qalındır). M: "Hansı nazikdir? " (Göstər və de: dəftər nazikdir). Sonra müəllim partaların üstünə yaşıl rəngli uzun lent, sarı rəngli qısa lent qoyur. Onlardan hansının uzun, hansının qısa olduğunu göstərmək və demək xahiş olunur. M: "Hansı lent uzundur?" (Göstər və de: Yaşıl rəngli lent uzundur). M:"Hansı lent qısadır?" (Göstər və de: Sarı rəngli lent qısadır). Müəllim lövhədən şam ağacı və alma ağaclarının şəkli olan plakat asır. Şagirdlərdən şəkildəki hansı ağacın hündür, hansı ağacın alçaq olduğunu göstərib demələrini xahiş edir. M: "Bu hansı ağacdır?" (Göstər və de: Bu şam ağacıdır). M: "Bəs bu hansı ağacdır?" (Göstər və de: Bu alma ağacıdır). M:Hansı hündürdür? (Göstər və de: Şam ağacı hündürdür). M: "Hansı alçaqdır?" (Göstər və de: Alma ağacı alçaqdır).

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və qalın olan əşyanı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərə eyni tip və eyni formada, lakin iki fərqli rəngdə olan əşya verilir və onlardan qalın olanını göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və qalın olan əşyanı göstərin.

**a)** Qırmızı rəngli albom.

**b)** Ağ rəngli dəftər vərəqi.

**Tapşırıq 2.** Şagirdlərə eyni tip və eyni formada, üç fərqli rəngdə olan əşya verilir. Onlardan uzun olanını göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və uzun olan əşyanı göstərin.

**a)** Sarı rəngli uzun ip.

**b)** Qırmızı rəngli qısa ip.

**c)** Göy rəngli ən qısa ip.

**Tapşırıq 3.** Şagirdlərə eyni tipli, müxtəlif formalarda, iki fərqli rəngdə olan əşyalar verilir və onlardan hündür olanını göstərmək xahiş olunur.

LAYİHƏ

Qarşınızdakı əşyalara baxın və ən hündür olan əşyanı göstərin.

**a)** Yaşıl rəngli plastikdən hündür su qabı.

**b)** Göy rəngli plastikdən alçaq su qabı.

**Tətbiqetmə:** Dərsliyin 8-ci səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

Lövhədən üzərində böyük qırmızı əlcək, kiçik qırmızı əlcək, formaca eyni olan sarı top və göy top, yerdə bir qələm və qələmqabında çoxlu karandaş təsvir olunan plakat asılır. Bu əşyalardan hansının böyük, hansının kiçik, hansıların ölçülərinə görə eyni, rənginə görə müxtəlif, hansının az, hansının çox olduğu soruşulur. Araşdırma aparılır. Öyrənmə prosesi beyin həmləsi, müzakirə metodlarından istifadə etməklə 1-ci dərsə analoji qaydada aparılır.

**Tətbiqetmə:** Dərsliyin 9-cu səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

2-ci çalışmada müəllim şagirdlərdən səbətə görə tərəvəzlərin, dovşanın və çəyirtkənin yerini demələrini xahiş edir. M: "Dovşan haradadır?" (Ş: Dovşan səbətin arxasındadır). M: "Çəyirtkə haradadır?" (Ş: Çəyirtkə səbətin önündədir). M: "Tərəvəzlər haradadır?" (Ş: Tərəvəzlər səbətin içindədir). M: "Bu gün biz ***içində***, ***önündə***, ***arxasında*** anlayışlarını təkrar etdik."

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: Zaman və məkan anlayışı.

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Zaman və məkan anlayışlarını bilir.

**2.** Zamana və məkana aid olan şəkilləri fərqləndirir və göstərir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Sutkanın müxtəlif vaxtlarına aid şəkillər | Oxu, həyat bilgisi |

**Motivasiya.** Lövhədən üzərində günəşin çıxması və xoruzun hasarın üstündə banlaması, qız və oğlanın parta arxasında əyləşib yazı yazmaları, qızın axşam televizora baxması, pəncərədən ulduzların görünməsi, qızın yatması və pəncərədən ayın görünməsinin təsvirləri olan plakat asılır. Bu hadisələrin günün hansı vaxtında baş verdiyini demək şagirdlərdən xahiş olunur. M: "Günəş nə zaman çıxır? "(Göstər və de: Günəş səhər çıxır). M: "Qız və oğlan nə vaxt yazı yazırlar?" (Göstər və de: Qız və



LAYİHƏ

oğlan gündüz yazı yazırlar). M: Qız nə vaxt televizora baxır? “ (Göstər və de: Qız axşam televizora baxır). M: "Bunu nədən bilmək olar? "(Göstər və de: Pəncərədən görünən ulduzlardan axşam olduğu görünür). M: "Qız nə vaxt yatır?" (Göstər və de: Qız gecə yatır).

**Tədqiqat sualı:** Qarşınızdakı şəkillərə baxın, hadisənin səhər, gündüz, axşam və ya gecə baş verdiyini göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərə sutkanın müxtəlif vaxtlarını əks etdirən iki şəkil verilir. Onlardan hadisənin günün hansı vaxtında baş verdiyini göstərib demələri xahiş olunur.

Qarşınızdakı şəkillərə baxın və hadisənin gündüz baş verdiyi şəkli göstərin.

**a)** Qız və oğlan məktəbə gedirlər.

**b)** Qız və oğlan parta arxasında əyləşib kitab oxuyurlar.

**Tətbiqetmə:** Dərsliyin 10-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## DƏRS 2.

Müəllim lövhədən qəfəsin içində şir, qəfəsin çölündə isə ceyran olan plakat asır və şagirdlərdən şirin və ceyranın harada olduğunu göstərib demələrini xahiş edir. M:"Uşaqlar, şəkildə şir haradadır?" (Göstər və de: Şir qəfəsin içindədir). M: "Ceyran qəfəsin çölündədir, yoxsa içində?" (Göstər və de: Ceyran qəfəsin çölündədir).

**Tətbiqetmə:** Dərsliyin 11-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

2-ci çalışmada sarı kubun üstündə, qırmızı kubun arasında, göy kubun isə altında olduğu şagirdlər tərəfindən müəyyən edilir. Müəllim ümumiləşdirmə aparır. M:"Bu gün biz ***üstündə***, ***arasında***, ***altında*** anlayışlarını təkrar etdik və öyrəndik."

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## DƏRS 3.

Müəllim lövhədən üzərində yolda hərəkət edən minik avtomobili, avtobus, yük avtomobilinin şəkilləri olan plakat asır və onlardan hansı avtomobilin birinci, hansının ikinci və sonuncu yerlərdə getdiyini göstərib, demələrini xahiş edir. M: "Minik avtomobili yolda neçənci yerdə hərəkət edir?"(Göstər və de: Minik avtomobili yolda birinci yerdə hərəkət edir). M: "Avtobus neçənci yerdə hərəkət edir?" (Göstər və de: Avtobus ikinci yerdə hərəkət edir). M: "Yük maşını neçənci yerdə hərəkət edir?" (Göstər və de: Yük maşını sonuncu yerdə hərəkət edir).

**Tətbiqetmə:** Dərsliyin 12-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənir.

3-cü çalışmada "Tıq- tıq xanım" nağılı yada salınır. Tıq- tıq xanımın 1-ci çobanla, 2-ci tülkü ilə və sonuncu Siçan bəylə qarşılaşdığı şagirdlər tərəfindən bildirilir. Müəllim ümumiləşdirmə aparır. M: "Bu gün biz 1-ci, 2-ci, sonuncu anlayışlarını təkrar etdik."

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

# **Mövzu:** 1- 10 ədədləri

**DƏRS 1**

**Təlim məqsədləri:**

**1.** Şagird 1- 10 dairəsində ədədləri tanıyır və yazır.

**2.** 1-10 dairəsində ədədlər üzrə toplamanı, çıxmanı və müqayisə etməyi bacarır.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | 1, 2, 3 rəqəmləri yazılmış kartlar, dəftərlər, rəngli leqolar | Oxu, nitq inkişafı |

**Motivasiya.** Müəllim lövhədən üzərində 1, 2, və 3 rəqəmləri yazılmış kartlar asır, həm də lövhədə 1, 2, 3 rəqəmlərini yazır. Şagirdlərdən bu rəqəmlərin adını demələrini xahiş edir. M:"Lövhədə və kartlarda yazılmış rəqəmlərin adlarını deyin." (Göstər və de: bir, iki, üç). Sonra müəllim hər şagirdə bir say çöpü verir və onlardan əllərində neçə say çöpü olduğunu demələrini xahiş edir. M:"Əlinizdə neçə say çöpü var?" (Göstər və de: 1 say çöpü var). Sonra müəllim şagirdlərə daha bir say çöpü verir və soruşur. M: "Sizin əlinizdə neçə say çöpü oldu?" (Göstər və de: İki say çöpü oldu). M:"İki say çöpü necə alındı?" (Göstər və de: Bir say çöpünün üzərinə bir say çöpü əlavə etdik). M: "Bunu misal şəklində necə yaza bilərik?" (De: 1+1=2). Müəllim bu misalı lövhədə yazır. Müəllim şagirdlərə daha bir say çöpü də verir və onlardan əllərindəki say çöplərini saymağı, əllərində neçə say çöpü olduğunu demələrini xahiş edir. M: "İndi sizin əlinizdə neçə say çöpü oldu?" (Göstər və de: Üç say çöpü oldu). M: "Üç say çöpünü necə aldınız?" (Göstər və de: İki say çöpünün üzərinə bir say çöpü əlavə etdik). M:"Bunu misal şəklində necə yaza bilərik?" (De: 2+1=3). Müəllim bu misalı da lövhədə yazır.

**Tədqiqat sualı:**

**1.** Uşaqlar, bu gün biz hansı ədədlərlə tanış olduq?

**2.** 2 ədədində, 3 ədədində neçə vahid var?

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərə iki eyni tipli, eyni formada lakin, fərqli rənglərdə olan əşyalar verilir. Onlardan iki ədəd yaşıl rəngdə olanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və iki yaşıl rəngdə olan əşyaları göstərin.

**a)** Qırmızı üzlüklü bir dəftər.

**b)** Yaşıl üzlüklü iki dəftər.

**Tapşırıq 2.** Şagirdlərə eyni tipli, eyni formada, fərqli rənglərdə olan üç əşya verilir və onlardan üç ədəd göy rəngdə olan əşyanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və göy rəngdə olan üç əşyanı göstərin.

**a)** Bir qırmızı rəngli leqo.

**b)** Üç göy rəngli leqo.

**c)** Bir sarı rəngli leqo.

**Tətbiqetmə:** Dərsliyin 13-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 1 – 4 ədədləri. Toplama əməli.

**Təlim məqsədləri:**

**1.** 1, 2, 3, 4 ədədlərini tanıyır və yazır.

**2.** Toplama əməlini bilir və həll edir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Misallar yazılmış plakat, say çöpləri, dəftər, kitab | Oxu, nitq inkişafı |

**Motivasiya.** Müəllim lövhədən üzərində 2+1=3 və 3+1=4 misalları yazılmış plakatı asır. Hər şagirdə 3 ədəd say çöpü verir və əllərində neçə say çöpü olduğunu sayıb demələrini xahiş edir. M: "Əlinizdə neçə say çöpü var?" (Göstər və de: 3 say çöpü var). Müəllm hər şagirdə daha bir say çöpü verir və əllərində neçə say çöpü olduğunu sayıb demələrini xahiş edir. M:"Əlinizdəki say çöplərini sayın və neçə say çöpü olduğunu deyin. "(De: 4 say çöpü oldu). M: "4 say çöpü necə alındı?" (Göstər və de: 3 say çöpünün üzərinə 1 say çöpü əlavə etdik). M: "Bunu misal şəklində necə yaza bilərik?" (De: 3+1=4). Sonra müəllim şagirdlərə lövhədən asdığı plakatda yazılmış misallara baxmağı və bu misallarda hansı əməlin icra olunduğunu demələrini təklif edir. M: "Plakatda yazılmış misallarda hansı əməl isra edilmişdir?" (Göstər və de: Bu misallarda toplama əməli icra edilmişdir). M: "Bu gün biz "toplama" əməlini öyrənəcəyik. Toplama riyazi əməldir. Toplama əməlində ədədlər arasında "üstəgəl" işarəsi qoyulur. Toplama əməlində 1-ci ədədin üzərinə 2-ci ədəd əlavə edilir."

**Tədqiqat sualı:** Qarşınızdakı misallara baxın və hansı misalda üstəgəl işarəsi olduğunu və toplama əməlinin icra olunduğunu göstərin və deyin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlərin qarşısına müxtəlif əməlli iki misal yazılmış kart qoyulur və onlardan hansı misalda ədədlər arasında "üstəgəl" işarəsinin qoyulduğunu, toplama əməlinin icra olunduğunu göstərib demələri xahiş olunur.

Qarşınızdakı misallara baxın. Hansı misalda ədədlər arasında "üstəgəl" işarəsi qoyulduğunu və toplama əməlinin icra olunduğunu göstərib deyin.

**a)** 3+1=4

**b)** 4-1=3

**Tətbiqetmə:** Dərsliyin 14-cü səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar yerinəı yetirilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 1 – 6 ədədləri. Çıxma əməli.

**Təlim məqsədləri:**

**1.** Şagird 1-dən 6-ya qədər ədədləri tanıyır və göstərir.

**2.** Çıxma əməlini bilir və həll edir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Rəqəmlər və misallar yazılmış kartlar, dəftər, kitab | Oxu, nitq inkişafı |

**Motivasiya.** Müəllim lövhədən üzərində 1, 2, 3, 4, 5, 6 rəqəmləri yazılmış kartlar asır və şagirdlərdən 1-dən 6-ya qədər bir-bir artırmaqla, 6-dan 1-ə qədər bir-bir azaltmaqla saymağı xahiş edir. Müəllim hər şagirdə fərdi şəkildə saydırır və dinləyir. Sonra müəllim şagirdlərin qarşısına üzərində 2-1=1, 3-1 = 2, 4 -1=3 misalları yazılmış kartlar qoyur. Şagirdlərdən bu misallarda hansı riyazi əməlin yerinə yetirildiyini göstərib demələrini xahiş edir. M: "Qarşınızdakı misallarda hansı riyazi əməl yerinə yetirilmişdir?" (Göstər və de: Bu misallarda çıxma əməli yerinə yetirilmişdir). Sonra müəllim yeni dərsi izah edir. M: "Çıxma riyazi əməldir. Çıxma əməlində ədədlər arasında "çıx" işarəsi (-) qoyulur. Birinci ədəddən ikinci ədəd çıxılır."

**Tədqiqat sualı:** Qarşınızdakı misallara baxın və çıxma əməli olan misalı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa iki kartda müxtəlif əməllərə dair misallar təqdim edilir və onlardan hansı misalda çıxma əməli olduğunu göstərmək və demək xahiş olunur.

Qarşınızdakı misallara baxın və çıxma əməli olan misalı göstərin və deyin.

**a)** 2+1=3

**b)** 3-1=2

**Tətbiqetmə**: Dərsliyin 15-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 0 ədədi.

**Təlim məqsədləri:**

**1.** Şagird 0 rəqəmini tanıyır və yazır.

**2.** 6 dairəsində toplama və çıxma əməlinə aid misalları həll edir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Göldə 3 qaz, boş göl şəkli olan plakat, karandaşlar, qələmlər | Oxu, nitq inkişafı |

**Motivasiya.** Müəllim stolun üstünə boş qələmqabı qoyur, əlindəki qələmləri bir-bir qələmqabına qoyduqca onunla birlikdə saymağı təklif edir. M:"Qələmqabına qoyulan qələmləri bir- bir sayaq: Bir, iki, üç. M: "Qələmqabında neçə qələm var?" (Göstər və de: Qələmqabında 3 qələm var). Sonra müəllim qələmləri qələmqabından götürür və şagirdlərdən qələmqabında neçə qələm qaldığını demələrini xahiş edir. M: "Qələmqabında neçə qələm qaldı?" (Göstər və de: Qələmqabında qələm qalmadı). M: "Qələmqabında qələm qalmadığını hansı rəqəmlə işarə edəcəyik?" (De: 0 rəqəmi ilə işarə edəcəyik). M:"Bu həlli misal şəklində necə yaza bilərik?" (De: 3-3=0). M: "Yadda saxlayın ki, istənilən ədəddən həmin ədədin özünü çıxdıqda 0 (sıfır) alınır."

**Tədqiqat sualı:** Qarşınızdakı misallara baxın və cavabı 0 (sıfır) olan misalı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünür. Onlara iki kartda yazılmış iki eyni əməlli misalları həll etmək və cavabı 0 ( sıfır ) olanı göstərmək tapşırılır.

Qarşınızdakı misalları həll edin və cavabı 0 (sıfır) olanı göstərin.

**a)** 2-2=

**b)** 2-1=

**Tətbiqetmə:** Dərsliyin 16-cı səhifəsində verilmiş 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar həll olunur.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** 2 + 0 və 2 – 0 şəklində misallar.

**Təlim məqsədləri:**
**1.** Şagird ədədin üzərinə 0 (sıfır) gəlməyi, ədəddən 0 (sıfır) çıxmağı bilir.
**2.** 6 dairəsində ədədləri tanıyır və yazır.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Bir göl boş, 2-ci göldə 2 ördək olan plakat, say çöpləri | Oxu, nitq inkişafı |

**Motivasiya.** Müəllim lövhədən bir göl boşdur və ikinci göldə 2 ördək olan plakat asır. Müəllim şagirdlərdən hər göldə ayrılıqda və sonra iki göldə birlikdə neçə ördək olduğunu demələrini xahiş edir. M: "1-ci göldə neçə ördək var?" (Göstər və de: Göldə ördək yoxdur). M: "2-ci göldə neçə ördək var?" (Göstər və de: 2-ci göldə 2 ördək var). M: "İki göldə birlikdə neçə ördək var?" (Göstər və de: İki göldə birlikdə 2 ördək var). M: "2 ədədini necə aldınız?" (Göstər və de: 0-ın üzərinə 2 əlavə etdik). M: "Bunu misal şəklində necə yazmaq olar?" (De: 0+2=2). Müəllim bu misalı lövhədə yazır. Sonra müəllim 2-0=2 misalını izah edir. Müəllim şagirdlərin hər birinə 2 say çöpü verib, onlardan 0 (sıfır) say çöpünü partanın üstünə qoymağı, əllərində neçə say çöpü qaldığını deməyi xahiş edir. M: "Əlinizdə neçə say çöpü var?" (Göstər və de: 2 say çöpü var). M: "0 (sıfır) say çöpünü partanın üstünə qoyun. Əlinizdə neçə say çöpü oldu?" (Göstər və de: 2 say çöpü). M: "İki say çöpü necə alıdı?" (Göstər və de: İki say çöpündən 0 (sıfır) say çöpünü çıxdıqda 2 alınır). Bunu misal şəklində necə yazmaq olar?" (De: 2-0=2) M: "Yadda saxlayın ki, hər hansı bir ədədi sıfırla topladıqda və ya ədəddən sıfırı çıxdıqda həmin ədədin özü alınır."

**Tədqiqat sualı:** Qarşınızdakı misallara baxın və ədədin üzərinə sıfırın əlavə olunması və ya ədəddən sıfırın çıxılmasına dair misalı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Onlara iki kartda yazılmış iki eyni əməlli misallar təqdim edilir. Şagirdlərdən ədədin üzərinə sıfır əlavə edilən misalı göstərmək xahiş olunur.

Misalları həll edin və ədədin üzərinə sıfır əlavə edilən misalı göstərin.

**a)** 2 + 2
**b)** 2 + 0

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Onlara iki kartda yazılmış iki eyni əməlli misallar təqdim edilir. Şagirdlərdən ədəddən sıfır çıxılan misalı göstərmək xahiş olunur.

**1.** Qarşınızdakı misalları həll edin və ədəddən sıfır çıxılan misalı göstərin.

**a)** 3 – 1
**b)** 3 – 0

**Tətbiqetmə:** Dərsliyin 17-ci səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** Əvvəlki ədəd.

**Təlim məqsədləri:**
1. Şagird əvvəlki ədəd anlayışını bilir və deyir.
2. 6 dairəsində toplama və çıxma əməlini həll edə bilir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | "Hava limanında 5 təyyarə və 1 təyyarə havaya qalxır" təsviri olan plakat, rəngli karandaşlar, iş dəftəri, rəqəmlər yazılmış kartlar | Oxu, nitq inkişafı |

**Motivasiya.** Lövhədən hava limanında 5 təyyarənin olduğu, 1 təyyarənin də havaya qalxdığı təsvir olunan plakat asılır. Müəllim şagirdlərdən hava limanında əvvəl neçə təyyarənin olduğunu, 1 təyyarə uçub getdikdən sonra neçə təyyarə qaldığını demələrini xahiş edir. M: "Əvvəl təyyarə limanında neçə təyyarə vardı? "(Göstər və de: Əvvəl hava limanında 6 təyyarə vardı). M: "1 təyyarə uçub getdikdən sonra hava limanında neçə təyyarə qaldı?" (Göstər və de: 1 təyyarə uçub getdikdən sonra hava limanında 5 təyyarə qaldı). M: "5 ədədini necə aldınız? "(Göstər və de: 6-dan 1-ni çıxmaqla aldıq). M: "Bunu misalın köməyi ilə necə yazmaq olar?" (De: 6-1=5). M: "5 ədədi 6 ədədindən əvvəlki, ya sonrakı ədəddir?" (De: 5 ədədi 6 ədədindən əvvəlki ədəddir). M: "Bu gün biz "Əvvəlki ədəd" mövzusunu öyrənəcəyik. Yadda saxlayın ki, hər hansı ədəddən bir ədədini çıxdıqda onun özündən əvvəlki ədəd alınır).

**Tədqiqat sualı:** Qarşınızdakı kartlarda olan rəqəmlərə baxın və verilmiş ədəddən əvvəlki ədədi tapıb göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1**. Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa üzərində müxtəlif rəqəmlər yazılmış üç kart təqdim edilir. Onlardan 4 ədədindən əvvəlki ədədi göstərmək xahiş olunur.

Qarşınızdakı kartlarda olan rəqəmlərə baxın və 4 ədədindən əvvəlki ədədi tapıb göstərin.

**a)** 2 rəqəmi yazılmış kart.
**b)** 3 rəqəmi yazılmış kart.
**c)** 6 rəqəmi yazılmış kart.

**Tapşırıq 2**. Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa üzərində müxtəlif rəqəmlər yazılmış 4 kart təqdim edilir və uşaqlardan 5 ədədindən əvvəlki ədədi göstərmək xahiş olunur.

Qarşınızdakı kartlarda olan rəqəmlərə baxın və 5 ədədindən əvvəlki ədədi tapıb göstərin.

**a)** 1 rəqəmi yazılmış kart.
**b)** 2 rəqəmi yazılmış kart.
**c)** 3 rəqəmi yazılmış kart.
**d)** 4 rəqəmi yazılmış kart.

**Tətbiqetmə:** Dərsliyin 18-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: Növbəti ədəd.

**Təlim məqsədləri:**
**1.** Şagird növbəti ədəd anlayışını bilir və göstərir.
**2.** 6 dairəsində toplama və çıxma əməlini həll edə bilir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Üzərində 4 sarı kağız üçbucaq və 1 ədəd də kəsilib hazırlanmaqda olan üçbucaq, say çöpləri, iş dəftərləri | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Lövhədən üzərində 4 ədəd sarı kağız üçbucaq və kəsilməkdə olan 1 ədəd sarı kağız üçbucağın şəkli olan plakat asılır. Şagirdlərdən neçə kəsilmiş sarı üçbucağın olduğunu, neçə sarı üçbucağın kəsilməkdə olduğu və cəmi neçə üçbucaq olduğunu demək xahiş olunur. M: "Hazırlanmış neçə kağız üçbucaq var?" (De: Hazırlanmış 4 üçbucaq var). M:"Daha neçə üçbucaq kəsilib hazırlanır?" (De: Qayçı ilə daha 1 üçbucaq kəsilib hazırlanır). M: "1 üçbucaq kəsilib hazırlandıqdan sonra cəmi neçə üçbucaq oldu?" (De: Cəmi 5 üçbucaq oldu). M: "5 üçbucağı necə aldıq? "(De: 4 ədəd sarı rəngli üçbucağın üzərinə 1 sarı rəngli üçbucaq əlavə etdik). Bunu misalın köməyi ilə necə yaza bilərik?" (De: 4+1=5). M: "5 ədədi 4 ədədindən əvvəlki ədəddir, yoxsa növbəti (sonrakı) ədəddir?" (De: 5 ədədi 4 ədədindən sonrakı, yəni növbəti ədəddir). Sonra müəllim 1-dən 5-ə qədər bir-bir artırmaqla birlikdə saymağı xahiş edir. M: "Gəlin birlikdə 1-dən 5-ə qədər bir-bir artırmaqla sayaq: bir, iki, üç, dörd, beş) . M: "1-dən 5-ə qədər saydıqda 5 ədədi 4 ədədindən əvvəl, yoxsa sonra gəlir?" (De: 5 ədədi 4 ədədindən sonra gəlir). M: "Bu gün biz növbəti ədəd anlayışını öyrənəcəyik. Yadda saxlayın ki, ədədin üzərinə 1 əlavə etdikdə növbəti ədəd alınır."

**Tədqiqat sualı:** Qarşınızdakı kartlarda yazılmış rəqəmlərə baxın və verilmiş ədəddən sonrakı, yəni növbəti ədədi göstərin.

**Tədqiqatın aparılması: Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa üzərində müxtəlif rəqəmlər yazılmış 3 kart təqdim olunur və onlardan 3 ədədindən sonra gələn növbəti ədədi göstərib tapıb göstərmələri xahiş olunur.

Qarşınızdakı kartlara baxın və 3 ədədindən sonra gələn növbəti ədədi tapıb göstərin.

**a)** 4 rəqəmi yazılmış kart.
**b)** 5 rəqəmi yazılmış kart.
**c)** 6 rəqəmi yazılmış kart.

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa üzərində müxtəlif rəqəmlər yazılmış 4 kart təqdim olunur və onlardan 5 ədədindən sonra gələn növbəti ədədi tapıb göstərmək xahiş olunur.

LAYİHƏ

Qarşınızdakı kartlara baxın və 5 ədədindən sonra gələn növbəti ədədi tapıb göstərin.

**a)** 7 rəqəmi yazılmış kart.
**b)** 6 rəqəmi yazılmış kart.
**c)** 8 rəqəmi yazılmış kart.
**d)** 9 rəqəmi yazılmış kart.

**Tətbiqetmə:** Dərsliyin 19-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar həll olunur.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: Ədədlərin müqayisəsi.

**Təlim məqsədləri:**
**1.** Şagird ədədləri fərqləndirə və müqayisə edə bilir.
**2.** Ədədlərin müqayisəli həllini yaza bilir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | 3 çiyələk, 4 ilbiz şəkli olan plakat, 4 qızılgül və 4 kəpənək şəkli, say çöpləri | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Müəllim lövhədən 3 çiyələk, 4 ilbiz və 4 kəpənək, 4 qızılgülün təsviri olan plakat asır. Müəllim şagirdlərdən 1-ci şəklə baxıb neçə çiyələk, neçə ilbiz olduğunu, hansının çox, hansının az olduğunu göstərib demələrini xahiş edir. M: "1-ci şəklə baxın. Neçə çiyələk var?" (Göstər və de: 3 çiyələk var). M: "Neçə ilbiz var?" (Göstər və de: 4 ilbiz var). M: "Çiyələklər çoxdur, yoxsa ilbizlər?" (Göstər və de: İlbizlər çiyələklərdən çoxdur. Çiyələklər ilbizlərdən azdır). M: "Bunu misalların köməyi ilə necə yaza bilərik?" (De: 4>3; 3<4). Müəllim bu misalları lövhədə yazır. Sonra müəllim şagirdlərdən 2-ci şəklə baxıb, kəpənəkləri və qızılgüllərdən hansının çox, hansının az və ya bərabər olduğunu göstərib demələrini xahiş edir. M: "Neçə kəpənək var?" (Göstər və de: 4 kəpənək var). M: "Neçə qızılgül var?" (Göstər və de: 4 qızılgül var). M: "Hansı çoxdur? Hansı azdır və ya bərabərdir?" (Göstər və de: 4 kəpənək və 4 qızılgül bərabərdir). M: "Bunu misalın köməyi ilə necə yaza bilərik?" (De: 4=4). Müəllim bu misalı da lövhədə yazır və lövhədəki misalları şagirdlərin dəftərlərində yazdırır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın. Hansının çox, hansının az və ya bərabər olduğunu göstərin.

**Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, iki müxtəlif rəngdə olan əşyalar təqdim edilir. Onlardan hansınım çox, hansının az olduğunu göstərmələri xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və çox olanı göstərin.

**a)** 3 ədəd yaşıl rəngli dairəvi düymə.
**b)** 4 ədəd qırmızı rəngli dairəvi düymə.

LAYİHƏ

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə əşyalar təqdim edilir. Onlardan hansıların sayca bərabər olduğunu göstərmələri xahiş olunur.

Qarşınızdakı əşyalara baxın, sayı bərabər olanları göstərin.

**a)** 5 ədəd qırmızı muncuq.

**b)** 5 ədəd yaşıl muncuq.

**c)** 2 ədəd sarı muncuq.

**Tətbiqetmə:** Dərsliyin 20-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: 1- 5 ədədləri.

**Təlim məqsədləri:**

**1.** 5 dairəsində olan ədədləri tanıyır və göstərir.

**2.** Şagird 5 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Rəngli kağız kvadratlar, kağız üçbucaqlar, say çöpləri, iş dəftəri, kitab | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Müəllim şagirdlərin qarşısına 4 ədəd yaşıl rəngli, 1 ədəd qırmızı rəngli kağız kvadrat qoyur. Müəllim şagirdlərdən əvvəl yaşıl kvadratların sayını, sonra qırmızı kvadratların sayını, daha sonra isə kvadratların birlikdə sayını demələrini xahiş edir. M: "Qarşınızda neçə yaşıl kvadrat var?" (Göstər və de: 4 yaşıl kvadrat var). M: "Qarşınızda neçə qırmızı kvadrat var?" (Göstər və de: 1 qırmızı kvadrat var). M: Qarşınızda cəmi neçə kvadrat var?" (Göstər və de: 5 kvadrat var). M: "5 kvadratı necə aldınız?" (Göstər və de: 4 yaşıl kvadratın üzərinə 1 qırmızı kvadrat əlavə etdik). M: "Bunu misalın köməyi ilə necə yazmaq olar?" (De: 4+1=5 ). Sonra müəllim şagirdlərdən 1 ədəd qırmızı kvadratı ona verməlerini və qarşılarında neçə kvadrat qaldığını sayıb demələrini xahiş edir. M: "1 ədəd qırmızı kvadratı mənə verdikdən sonra qarşınızda neçə kvadrat qaldı?" (Göstər və de: 4 kvadrat qaldı ). M:"4 kvadratı necə aldınız?" (Göstər və de: 5 kvadratdan 1 qırmızı kvadratı verdik). M: "Bunu misalın köməyi ilə necə yazmaq olar?" (De: 5-1=4).

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və 5 ədəd qırmızı rəngdə olanı göstərin.

**Tədqiqatın aparılması: Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə olan əşyalar təqdim edilir və onlardan 5 ədəd qırmızı rəngdə olanını göstərmək xahiş olunur.

LAYİHƏ

Qarşınızdakı əşyalara baxın və 5 ədəd qırmızı rəngdə olan əşyanı göstərin.

**a)** 3 ədəd yaşıl alma.

**b)** 2 ədəd sarı alma.

**c)** 5 ədəd qırmızı alma.

**Tətbiqetmə:** Dərsliyin 21-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü,5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: ■ + 1 + 1 şəklində misallar

**Təlim məqsədləri:**

**1.** Şagird ■ + 1 + 1 şəklində misalları həll edir.

**2.** Şagird 6 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | "Dayanacaqda 2 avtomobil və əvvəl 1 avtomobilin, sonra daha 1 avtomobilin gəldiyi" təsviri olan plakat, iş dəftəri, say çöpləri | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Müəllim lövhədən dayanacaqda 2 avtomobil olduğu, əvvəl 1 avtomobilin daha sonra 1 avtomobilində gəldiyi təsvir olunan plakat asır. Müəllim şagirdlərdən dayanacaqda neçə avtomobilin olduğunu, oraya əvvəl 1 avtomobil, sonra daha 1 avtomobil gəldikdən sonra cəmi neçə avtomobil olduğunu sayıb deməlҙrini xahiş edir. M: "Dayanacaqda neçə avtomobil var?" (Göstər və de: Dayanacaqda 2 avtomobil var). M: "Əvvəl 1 avtomobil, sonra daha 1 avtomobil gəldikdən sonra dayanacaqda neçə avtomobil oldu?" (De: 4 avtomobil oldu). M: "4 ədədini necə aldınız?" (Göstər və de: 2 ədədinin üzərinə əvvəl 1 ədədini, sonra yenə 1 ədədini əlavə etdik). M: "Bunu misal şəklində necə yaza bilərik ? " (De: 2+1+1=4). Müəllim misalı lövhədə yazır və izah edir dəmekdir. M: "Ədədin üzərinə əvvəl 1, sonra yenə 1 əlavə etmək ədədin üzərinə 2 əlavə etmək).

**Tədqiqat sualı:** Qarşınızda olan əşyaları sayın. Əvvəl 1 əşya və daha 1 əşya əlavə etdikdən sonra cəmi neçə əşya olduğunu deyin.

**Tədqiqatın aparılması:** Şagirdlər iki qrupa bölünürlər. Müəllim hər qrupun qarşısına 3 qırmızı gilas maketi qoyur və onlara əvvəl 1, sonra yenə 1 gilas maketi təqdim etdikdən sonra qarşılarında neçə gilas maketi olduğunu deməlerini xahiş edir. Araşdırma beyin həmləsi və müzakirə metodlarından istifadə etməklə aparılır.

**Tətbiqetmə:** Dərsliyin 22-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 1–6 ədədləri**

**Təlim məqsədləri:**
**1.** Şagird 6 dairəsində olan ədədləri tanıyır və yazır.
**2.** Şagird 6 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, kollektiv iş | Beyin həmləsi, müzakirə | "5 toyuq dən yeyir, 1 toyuqda gəlir" şəkli olan plakat, say çöpləri, kitablar, iş dəftərləri | Həyat bilgisi, nitq inkişafı, texnologiya, oxu |

**Motivasiya.** Müəllim lövhədən üzərində "5 toyuq dən yeyir, 1 toyuq da gəlir" şəkli olan plakat asır və şagirdlərdən neçə toyuğun dən yediyini, 1 toyuq gəldikdən sonra cəmi neçə toyuq olduğunu göstərib demələrini xahiş edir. M: "Neçə toyuq dən yeyir?" (Göstər və de: 5 toyuq dən yeyir). M: "Neçə toyuq dən yeməyə gəlir?" (Göstər və de: 1 toyuq dən yeməyə gəlir). M: "1 toyuq gəldikdən sonra cəmi neçə toyuq oldu?" (Göstər və de: 6 toyuq oldu). M:"Bunu misal şəklində necə yazmaq olar?" (De: 5+1=6). Müəllim misalı lövhədə yazır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və sayı 6 ədəd olan əşyanı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə olan quş şəkilləri və ya maketləri təqdim edilir, onlardan sayı 6 ədəd olanı göstərmək xahiş olunur.

Qarşınızdakı quş şəkillərinə baxın, sayı 6 ədəd olan quş şəkillərini göstərin.

**a)** 6 ədəd ağ toyuq.
**b)** 4 ədəd çil toyuq.
**c)** 3 ədəd qara toyuq.

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə olan əşyalar və ya maketlər təqdim olunur. Onlardan sayı 6 ədəd olanları göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sayı 6 ədəd olan əşyanı göstərin.

**a)** 5 ədəd qırmızı top.
**b)** 6 ədəd göy top.
**c)** 4 ədəd göy top

**Tətbiqetmə:** Dərsliyin 23-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS 2.**

Müəllim şagirdləri iki qrupa bölür. Hər qrupa 6 ədəd say çöpü təqdim edir. Müəllim şagirdlərdən təqdim olunan say çöplərini saymağı, sonra bu çöplərdən 2 ədədini ona qaytarmalarını və qarşılarında neçə say çöpü qaldığını sayıb deməlerini xahiş edir. M: "Qarşınızda neçə say çöpü var?" (Göstər və de: 6 say çöpü). Sonra müəllim 2 say çöpünü ona qaytarmalarını xahiş edir. M: "2 say çöpünü mənə verdikdən sonra qarşınızda neçə say çöpü qaldı?" (Göstər və de: 4 say çöpü qaldı). M: "4 say çöpünü necə aldınız?" (De: 6-dan 2-ni çıxdıq). M: "Bunu misal şəklində necə yaza bilərik?" (De: 6-2=4). Müəllim misalı lövhədə yazır və şagirdlərə də dəftərlərində yazdırır.

**Tətbiqetmə**: Dərsliyin 24-cü səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 3.**

Müəllim lövhədən üzərində 5 uşaq, 6 tennis raketkasının şəkli olan plakat asır və şagirdlərdən şəkildə neçə uşaq, neçə raketka olduğunu, hansının çox, hansının az olduğunu deməlerini xahiş edir. M: "Şəkildə neçə uşaq var?" (Göstər və de: 5 uşaq var). M: "Neçə raketka var?" (De: 6 raketka var). M: "Hansı çoxdur?" (De: Raketkalar çoxdur). M: "Hansı azdır?" (De: Uşaqlar azdır). M: "Bunu misal şəklində necə yazmaq olar?" (De: 6>5; 5<6). Müəllim misalları lövhədə yazır, şagirdlərə dəftərlərində yazırlar.

**Tətbiqetmə:** Dərsliyin 25-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: 1 - 7 ədədləri.

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird 7 dairəsində ədədləri tanıyır və göstərir.

**2.** Şagird 7 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Plakatda 7 şəkərbura şəkli, onlardan 1-i aralıda, say çöpləri, kitablar, iş dəftərləri | Həyat bilgisi, nitq inkişafı, oxu |

LAYİHƏ

**Motivasiya.** Müəllim lövhədən üzərində ananın naxışladığı 6 şəkərbura və Səbinənin naxışladığı 1 şəkərbura şəkilləri olan plakat asır. Şagirdlərdən ananın neçə və Səbinənin neçə şəkərburanın naxışladıqlarını, cəmi neçə şəkərbura naxışladıqlarını sayıb demələrini xahiş edir. M:"Ana neçə şəkərbura naxışladı?" (Göstər və de: Ana 6 şəkərbura naxışladı). M: "Səbinə neçə şəkərbura naxışladı?" (Göstər və de: Səbinə 1 şəkərbura naxışladı). M: "Onlar birlikdə neçə şəkərbura naxışladılar?" (Göstər və de: Onlar birlikdə 7 şəkərbura naxışladılar). M:"Bunu misal şəklində necə yazmaq olar?" (De: 6+1=7). Müəllim misalı lövhədə yazır, şagirdlərə də dəftərlərində yazdırır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və sayı 7 ədəd olanı göstərib deyin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə şəkillər olan kartlar təqdim olunur və onlardan hansının 7 ədəd olduğunu göstərib demək xahiş olunur.

Qarşınızdakı şəkillərə baxın. Şəkillərdə sayı 7 ədəd olanı göstərib deyin.

**a)** 7 ədəd qırmızı qızılgül şəkli.

**b)** 5 ədəd ağ qızılgül şəkli.

**c)** 4 ədəd sarı qızılgül şəkli.

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə olan əşyalar təqdim olunur və onlardan sayı 7 ədəd olanı göstərib demək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sayı 7 ədəd olanı göstərin.

**a)** 3 ədəd qırmızı rəngli plastik stəkan.

**b)** 6 ədəd göy rəngli plastik stəkan.

**c)** 7 ədəd yaşıl rəngli plastik stəkan.

**Tətbiqetmə:** Dərsliyin 26-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

**Motivasiya.** Şagirdlər iki qrupa bölünürlər. Müəllim hər qrupa 7 ədəd göy leqo təqdim edir. Müəllim qruplara leqoları saymağı, bu leqolardan əvvəl 1 leqo, sonra yenə 1 leqo ona verilməsini, bundan sonra qarşılarında neçə leqo qaldığını sayıb demələrini xahiş edir. Müzakirə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 27-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 1 - 8 ədədləri.

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird 8 dairəsində ədədləri tanıyır və göstərir.

**2.** Şagird 8 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | “7 uşaq sırada dayanıb, 1 uşaqda gəlir”. şəkli olan plakat, say çöpləri, kitablar, iş dəftəri | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Müəllim lövhədən üzərində "sırada dayanmış 7 uşaq və 1 uşaq da sırada dayanmağa gəlir" şəkli olan plakatı asır. Şagirdlərdən əvvəl sırada neçə uşaq dayandığını, 1 uşaq gəldikdən sonra sırada neçə uşaq olduğunu demələrini xahiş edir. M:" Sırada neçə uşaq dayanıb?" (Göstər və de: Sırada 7 uşaq dayanıb). M: "1 uşaq gəldikdən sonra sırada neçə uşaq oldu?" (Göstər və de: 1 uşaq gəldikdən sonra sırada 8 uşaq oldu). M: "Bunu misal şəklində necə yazmaq olar?" (De: 7+1=8). Müəllim misalı lövhədə yazır və şagirdlərə də dəftərlərində yazdırır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və 8 ədəd olanı göstərib deyin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, müxtəlif rəngdə olan əşyalar təqdim edilir və onlardan 8 ədəd olanı göstərib demək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sayı 8 ədəd olan əşyanı göstərib deyin.

**a)** 6 ədəd qırmızı rəngli oyuncaq maşın.

**b)** 8 ədəd göy rəngli oyuncaq maşın.

**c)** 5 ədəd sarı rəngli oyuncaq maşın.

**Tətbiqetmə:** Dərsliyin 28-ci səhifəsində olan 1-ci,2-ci, 3-cü,4-cü, 5-ci, 6-cı, 7-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

Müəllim lövhədən 1, 2, 3, 4, 5, 6, 7, 8 rəqəmləri yazılmış kartlar asır və həmin rəqəmləri lövhədə də yazır. Şagirdlərdən 1-dən 8-ə qədər bir-bir artırmaqla saymağı, 8 ədədinin ədədlər sırasında neçənci yerdə olduğunu demələrini xahiş edir. Araşdırma beyin həmləsi və müzakirə metodlarından istifadə etməklə aparılır. Öyrənmə dərs 1-ə analoji qaydada tətbiq etməklə aparılır.

**Tətbiqetmə:** Dərsliyin 29-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS: 3.**

Lövhədən bostanda 4 qarpız, kisədə 4 qarpız şəkli olan plakat asılır. Müəllim şagirdlərdən bunların hansının çox, hansının az və ya bərabər olduğunu demələrini xahiş edir. Araşdırma aparılır və müqayisə edilir. Araşdırma beyin həmləsi və müzakirə metodlarından istifadə etməklə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji qaydada tətbiq etməklə aparılır.

**Tətbiqetmə:** Dərsliyin 30-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 4.**

Lövhədən üzərində "çəmənlikdə 5 at var və 3 at da gəlir "şəkli olan plakat asılır. Müəllim şagirdlərdən əvvəlcə çəmənlikdə neçə at, 3 at gəldikdən sonra cəmi neçə at olduğunu demələrini xahiş edir. Araşdırma aparılır. Araşdırmada beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə dərs 1-ə analoji qaydada aparılır.

**Tətbiqetmə:** Dərsliyin 31-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 5.**

Lövhədən "təlxək əllərini açıb və əlindən uçan 8 şarın" olduğu plakat asılır. Müəllim şarlar uçmamışdan əvvəl klounun əlində neçə şar olduğunu təlxək əlini açdıqdan, şarlar havaya qalxdıqdan sonra onun əlində neçə şar qaldığını, bunun misal şəklində necə yazıldığını demələrini şagirdlərdən xahiş edir. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1- ə analoji qaydada aparılır.

**Tətbiqetmə:** Dərsliyin 32-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 6.**

Lövhədən üzərində "kolun yanında 6 dovşan və 2 dovşan da gəlir" şəkli olan plakat asılır. Müəllim şagirdlərdən kolun yanında neçə dovşan olduğunu, 2 dovşan gəldikdən sonra kolun yanında neçə dovşan olduğunu, bunu misalın köməyi ilə necə yazıldığını demələrini xahiş edir. Araşdirma aparılır. Araşdırmada beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə dərs 1-ə analoji qaydada aparılır.

**Tətbiqetmə:** Dərsliyin 33-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 1-9 ədədləri.

**Təlim məqsədləri:**
**1.** Şagird 9 dairəsində ədədləri tanıyır və göstərir.
**2.** Şagird 9 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Yerdə 8 oyuncaq maşın və uşağın əlində 1 oyuncaq maşın şəkli olan plakat, say çöpləri, kitablar, iş dəftəri | Həyat bilgisi, nitq inkişafı, oxu |

**Motivasiya.** Lövhədən üzərində "yerdə 8 oyuncaq maşın və uşağın əlində 1 oyuncaq maşın" şəkli olan plakat asılır. Müəllim şagirdlərdən yerdə neçə oyuncaq maşının olduğunu, uşağın əlində neçə oyuncaq maşının olduğunu, cəmi neçə oyuncaq maşının olduğunu sayıb demələrini xahiş edir. M:"Yerdə neçə oyuncaq maşın var? "(Göstər və de: 8 oyuncaq maşın var). M: "Uşağın əlində neçə oyuncaq maşın var?" (Göstər və de: 1 oyuncaq maşın var). M: "Cəmi neçə oyuncaq maşın var?" (De: 9 oyuncaq maşın var). M: "9 ədədini necə aldınız?" (De: 9-un üzərinə 1 əlavə etdik). M: "Bunu misal şəklində necə yazmaq olar?" (De:8+1=9). Müəllim misalı lövhədə yazır və şagirdlər dəftərlərində yazdırılır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və sayı 9 ədəd olan əşyanı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünür. Hər qrupa eyni tipdə, eyni formada, iki müxtəlif rəngdə olan əşyalar verilir və onlardan sayı 9 ədəd olanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və 9 ədəd olan əşyanı göstərin.

**a)** 9 ədəd qırmızı gilas şəkli.
**b)** 7 ədəd sarı gilas şəkli.

**Tapşırıq 2.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tip, eyni formada, üç müxtəlif rəngdə əşyalar təqdim edilir və onlardan 9 ədəd olanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və 9 ədəd olan əşyanı göstərin.

**a)** 9 ədəd yaşıl rəngli karandaş.
**b)** 8 ədəd qara rəngli karandaş.
**c)** 5 ədəd göy rəngli karandaş.

**Tətbiqetmə:** Dərsliyin 34-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

Müəllim şagirdlərə 7 ədəd sarı rəngli kağız üçbucaq təqdim edir və onları saymağı xahiş edir. Daha 2 yaşıl rəngli kağız üçbucaq da təqdim edir və qarşılarında cəmi neçə üçbucaq olduğunu demələrini xahiş edir. Diqqət 9 ədədinin necə alındığına yönəldilir. Araşdırma aparılır. Sonra müəllim şagirdlərdən 2 ədəd yaşıl rəngli üçbucağı partanın kənarına qoymağı və qarşılarında neçə üçbucağın qaldığını demələrini xahiş

LAYİHƏ

edir. Diqqət 7 ədədinin necə alındığına yönəldilir. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 35-ci səhifəsində olan 1-ci, 2-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 3.**

Müəllim şagirdlərə 6 ədəd göy rəngli kağız kvadrat təqdim edir və onları saymağı xahiş edir. Müəllim şagirdlərə 3 qırmızı kvadrat da təqdim edir və qarşılarında cəmi neçə kvadrat olduğunu söyləmələrini xahiş edir. 9 ədədinin necə alındığına fikir yönəldilir. Araşdırma aparılır. Sonra müəllim 3 ədəd qırmızı kvadratı partanın kənarına qoymağı və qarşılarında neçə kvadratın qaldığını söyləmələrini xahiş edir. Diqqət 6 ədədinin necə alındığına fikir yönəldilir. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 36-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 4.**

Lövhədən üzərində toyuğun önündə 5 cücənin, arxasında 4 cücənin dənləndiyi təsviri olan plakat asılır. Müəllim şagirdlərdən toyuğun önündə neçə cücənin, arxasında neçə cücənin və cəmi neçə cücənin olduğunu söyləmələrini xahiş edir. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 37-ci səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 5.**

Müəllim lövhədən üzərində" 6 qırmızı və 2 yaşıl xal olan domino daşı"şəkli olan plakat asır, şagirdlərdən domino daşında neçə qırmızı, neçə yaşıl xal olduğunu, cəmi neçə xal olduğunu söyləmələrini xahiş edir. 8 ədədinin necə alındığına fikir yönəldilir. Araşdırma aparılır. Araşdırmada beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 38-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 6.**

Lövhədən üzərində "səbətdə 7 top və yerdə 2 top" təsviri olan plakat asılır. Səbətdə və yerdə neçə topun olduğu, cəmi neçə topun olduğu soruşulur. Müzakirə aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 39-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir. 4-cü çalışmada cədvəldəki boş xanalara uyğun olan ədədləri tapmaq üçün

LAYİHƏ

verilmiş üçbucaqlardan istifadə edilir. Əvvəl xətkeşlə və ya say çöpü ilə 1 üçbucaq ayrılır və 8 ilə 1-in cəmindən 9 ədədinin alındığı bildirilir. Sonra düzbucaqlı xətkeş və ya say çöpü ilə 1 üçbucaq da ayrılır və saymaqla 7-nin üzərinə 2 əlavə etdikdə 9 alındığı bildirilir. İş bu ardıcıllıqla davam etdirilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

## Mövzu: 1 - 10 ədədləri.

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird 10 dairəsində ədədləri tanıyır və göstərir.

**2.** Şagird 10 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Budaqda 9 quş oturub və 1 quşda uçub gəldi şəkli olan plakat, kağız dairələr | Oxu, nitq inkişafı, texnologiya |

**Motivasiya.** Müəllim üzərində " budaqda 9 quş oturub və 1 quş da uçub gəlir şəkli olan plakatı lövhədən asır. Müəllim şagirdlərdən budaqdakı quşların sayını soruşur, 1 quş gəldikdən sonra budaqda neçə quş olduğunu deməlerini xahiş edir. M: "Budaqda neçə quş var?"(Göstər və de: Budaqda 9 quş var). M: "1 quş da budağa qonduqdan sonra budaqda neçə quş oldu?"(Göstər və de: 10 quş oldu). M:"10 ədədini necə aldınız?" (Göstər və de: 9-un üzərinə 1 əlavə etdik). M: "Bunu misal şəklində necə yaza bilərik?" (De: 9 + 1 = 10). Müəllim misalı lövhədə yazır və şagirdlərə dəftərlərində yazdırır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və sayı 10 ədəd olan əşyanı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, üç müxtəlif rəngdə əşyalar təqdim edilir və onlardan sayı 10 ədəd olanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sayı 10 ədəd olan əşyanı göstərin.

**a)** 10 ədəd qırmızı alma.

**b)** 8 ədəd sarı alma.

**c)** 5 ədəd yaşıl alma.

Qarşınızdakı əşyalara baxın və 10 ədəd olan əşyanı göstərin.

**a)** 10 ədəd göy rəngli kağız dairə.

**b)** 9 ədəd qırmızı rəngli kağız dairə.

**c)** 4 ədəd yaşıl rəngli kağız dairə.

**Tətbiqetmə:** Dərsliyin 40-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS 2.**

Lövhədən üzərində 10 kirpi, 8 alma şəkli olan plakat asılır. Şagirdlərdən şəkildə neçə kirpi, neçə alma olduğu, hansının çox, hansının az olduğu soruşulur. Müzakirə və müqayisə aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə**: Dərsliyin 41-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 3.**

Lövhədən üzərində "göldə 7 timsah üzür, 3 timsah gölün kənarında gedir " şəkli olan plakat asılır. Şagirdlərdən əvvəlcə göldə neçə timsah olduğu, sonra göldə neçə timsah qaldığını, 7 ədədinin necə alındığı soruşulur. Araşdırma aparılır. Bu zaman beyin həmləsi, müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 42-ci səhifəsindəki 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 4.**

Lövhədən üzərində kirpinin solunda 5 göbələk, sağında 5 göbələk şəkli olan plakat asılır. Şagirdlərdən kirpinin sol tərəfində neçə göbələk, sağ tərəfində neçə göbələk olduğu, 10 ədədinin necə alındığı soruşulur. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 43-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü,4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 5.**

Lövhədən üzərində boşqabda 6 qırmızı alma, yerdə 4 yaşıl alma şəkli olan plakat asılır. Şagirdlərdən boşqabda neçə alma, yerdə neçə alma olduğu, 10 ədədinin necə alındığı soruşulur. Araşdırma aparılır. Bu zaman beyin həmləsi və müzakirə metodlarından istifadə edilir. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 44-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə:** müşahidə əsasında aparılır.

## Mövzu: Onluq və təklik (1saat)

**Təlim məqsədləri:**

**1.** Şagird 10 ədədinin 1 onluq olduğunu bilir.
**2.** Şagird 10 ədədinin 10 təklik olduğunu bilir.
**3.** Şagird sayı 10 olan əşyaları 1 onluq və ya 10 təklik şəklində göstərə bilir.

LAYİHƏ

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Ədədlərin onluq və təkliyə ayrılmasını göstərən, plakat, say çöpləri, karandaşlar, qələmqabı, kartlar | Oxu nitq inkişafı, texnologiya |

**Motivasiya.** Müəllim üzərində ədədlərin onluq və təkliyə ayrılmasına aid şəkillər çəkilmiş plakatı yazı lövhəsindən asır. Gətirdiyi say çöplərini, sapı, karandaşları, qələmqabını şagirdlərə təqdim edir. Müəllim sinfi 2 qrupa bölür. Birinci qrupa say çöplərini və sapı, ikinci qrupa isə karandaşları və qələmqabını təqdim edir. Onlardan 10 ədəd say çöpünü sayıb sapla bağlamalarını, 10 ədəd karandaşı sayıb qələmqabına yığmalarını xahiş edir. Sonra qruplara sualla müraciət edir:

– Neçə ədəd say çöpünü sapla bağladınız?

– Neçə ədəd karandaşı qələmqabına yığdınız?

Fikirlər dinlənilir, müzakirələr aparılır. Bundan sonra müəllim dərsi izah edir:

– Uşaqlar, bu gün biz onluq və təklik anlayışı ilə tanış olduq. 1 onluq 10 təklik deməkdir. Siz 1 onluq say çöpünü dəstədə bağladınız, 1 onluq karandaşı isə qələmqabına yığdınız. Bu zaman, həm də gördünüz ki, 1 onluqda 10 təklik var.

Sonra müəllim şagirdlərin diqqətini dərsliyin 45-ci səhifəsinə yönəldir.

Fikirlər dinlənilir, müzakirə aparılır.

**Tədqiqat sualı:** 1 onluqda neçə təklik var?

Sayları 10 olan əşyaları tapın və göstərin.

**Tədqiqatın aparılması:** Şagirdlərə müxtəlif saylarda olan əşyaların şəkilləri təqdim olunur və onlardan sayı 10 olan əşyaların şəkillərini seçmələri xahiş olunur.

Qarşınızdakı şəkillərə baxın və sayları 10 olan əşyaların şəkillərini seçin.

**1)** Bir dəstədə bağlanmış say çöpü
**2)** Qələmqabı içində 10 rəngli karandaş
**3)** 3 banan, 5 ədəd qızılgül
**4)** Çötkədə 10 mavi kürə
**5)** 6 ədəd rəngli şar

**Tətbiqetmə:** Dərslik, səhifə 46 tapşırıq 1-3.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

## Mövzu: 11 ədədi (10 saat)

**Təlim məqsədləri:**
**1.** Şagird 11 ədədini tanıyır.
**2.** Şagird 11 ədədini yazır.
**3.** Şagird 11 dairəsində riyazi bacarıqlara yiyələnir.

LAYİHƏ

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | 11 ədədi yazılmış plakat, 11 ədəd say çöpü, 11 ədəd kubik, çötkə | Oxu nitq inkişafı, |

**Motivasiya.** Müəllim yazı lövhəsinə 11 ədədi yazılmış plakatı asır, gətirdiyi 11 ədəd say çöpünü, 11 ədəd kubiki,11ədəd karandaşı şagirdlərə təqdim edir. Müəllim sinfi 3 qrupa bölür.Birinci qrupa 10 ədəd say çöpü, ikinci qrupa 10 ədəd kubik, üçüncü qrupa isə 10 ədəd karandaş təqdim edir. Qruplara suallarla müraciət edir:

– Birinci qrupun neçə ədəd say çöpü var?
– İkinci qrupun neçə ədəd kubiki var?
– Üçüncü qrupun neçə ədəd karandaşı var?

Sonra müəllim birinci qrupa əlavə 1 ədəd say çöpü,ikinci qrupa əlavə 1 ədəd kubik, üçüncü qrupa isə əlavə 1 ədəd karandaş təqdim edib, saymalarını xahiş edir.

– İndi birinci qrupda neçə say çöpü oldu?
– İkinci qrupda neçə kubik oldu?
– Bəs üçüncü qrupda neçə karandaş oldu?

Fikirlər dinlənilir,müzakirə aparılır.

Müəllim şagirdlərə əşyaları birlikdə saymağı təklif edir.

Gəlin birlikdə sayaq:1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11. Deməli, sizin hər birinizin 11 əşyası var.Bu gün biz sizinlə 11 ədədi ilə tanış olduq. 11 ədədi, eyni zamanda 1 onluq, 1 təklik deməkdir.

Müəllim şagirdlərin diqqətini səhifə 47-yə yönəldir. Fikirlər dinlənilir, müzakirə aparılır.

**Tədqiqat sualı:** Şəkildəki hansı fiqurun sayı 11 ədədinə uyğundur?

**Tədqiqatın aparılması.** Şagirdlərə kvadrat və üçbucaq şəkilləri təqdim olunur və sayı 11 ədədinə uyğun olan fiqurun şəklini seçmələri xahiş olunur.

Qarşınızdakı şəkillərə baxın və sayı 11 ədəd olan fiqurun şəklini seçin.

**1)** 10 ədəd mavi kvadrat olan şəkil

**2)** 11 ədəd qırmızı üçbucaq olan şəkil

**Tətbiqetmə:** Dərslik, səhifə 47, tapşırıq 1-3 səhifə 48, tapşırıq 1.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## DƏRS 2.

Öyrənmə prosesi mövzuya aid növbəti dərsdə davam edir. Bu zaman müəllim araşdırmanı tapşırıq 4 üzrə bütün siniflə aparır. Müəllim tapşırığa uyğun hazırlanmış plakatı yazı lövhəsindən asır və şagirdlərə aşağıdakı suallarla müraciət edir:

– “Şəkildə neçə say çöpü var?”
– “11 ədədində neçə onluq, neçə təklik var?”
– “11 ədədindən 1 çıxsaq neçə qalar?”

Fikirlər dinlənilir,müzakirə aparılır. Şagirdlər 10 ədədinin necə alındığı ilə tanış olurlar. Dərslik: səhifə 48, tapşırıq 2-6

LAYİHƏ

**DƏRS 3.**

Bu dərsdə araşdırma dərslik, səhifə 49, tapşırıq 3 üzrə aparılır. Şagirdlər birlikdə say çötkəsində onluqları və təklikləri ayırmağı araşdırırlar. Müəllim şagirdlərə suallarla müraciət edir.

– “Say çötkəsində təkliklər harda olmalıdır?”

– “Çötkədə onluqlar harada olmalıdır?”

Fikirlər dinlənilir, müzakirə aparılır. Şagirdlər müəllimin köməyi ilə onluğun yuxarıdan 1-ci məftildə, təkliklərin isə yuxarıdan 2-ci məftildə göstərildiyini araşdıraraq öyrənirlər. Dərslik: səhifə 49,tapşırıq 1-7

**DƏRS 4.**

Öyrənmə mövzuya aid növbəti dərsdə davam edir.Müəllim bütün siniflə 50-ci səhifədəki tapşırıq 1 üzrə araşdırma aparır.Kitabdakı şəkildən istifadə etməklə motivasiya qururlur.

– “Şəkildə neçə kvadrat var?”

– “Şəkildə neçə üçbucaq var?”

– “Hansı çoxdur, hansı azdır?”

Fikirlər dinlənilir.müzakirə aparılır.Şagirdlər tapşırıqları həm lövhədə,həm də dəftərdə yazırlar. Dərslik; səhifə 50, tapşırıq 1-5

**DƏRS 5.**

Növbəti dərsdə müəllim 51-ci səhifədəki tapşırıq 4 üzrə, bütün siniflə birlikdə verilmiş şəkil üzrə araşdırma aparır. Müəllim şagirdlərə istiqamətləndirici suallarla yardım edir.

– “Kolda əvvəl neçə çiyələk var idi?”

– “Çiyələklərin neçəsini dərib boşqaba qoydular?”

– “Kolda neçə çiyələk qaldı?”

Fikirlər dinlənilir, müzakirə aparılır. Araşdırmaların nəticəsi həm yazı lövhəsində, həm də dəftərdə qeyd olunur. Dərslik: səhifə 51, tapşırıq 1-6.

**DƏRS 6.**

Mövzuya aid misal və məsələlər həll edilir.Tapşırıqlar üzrə araşdırmalar bütün siniflə, qruplarla, fərdi formada aparılır. Şagirdlərin əldə etdikləri bilik və bacarıqların tətbiqi yoxlanılır. Dərslik: səhifə 52, tapşırıq 1-5; səhifə 53, tapşırıq 1-7

**DƏRS 7.**

Növbəti dərsdə müəllim 53-cü səhifədəki tapşırıq 6 üzrə araşdırmanı bütün siniflə aparır. Şagirdlərin diqqətini tapşırığa aid şəklə yönəldir. Müəllim şagirdlərə suallarla müraciət edir.

– “Birinci qutuda neçə karandaş var?”

– “İkinci qutudakı karandaşların sayı, birinci qutudakı karandaşların sayından neçə ədəd çoxdur?”

“İkinci qutudakı karandaşların sayını necə tapmaq olar?”

Fikirlər dinlənilir, müzakirə aparılır. Araşdırmanın nəticəsini şagirdlər həm yazı lövhəsində, həm də dəftərlərində qeyd edirlər. Dərslik: səhifə 53,tapşırıq1-6

LAYİHƏ

**DƏRS 8-9**

Mövzuya aid olan növbəti dərsləri nümunələrə uyğun şəkildə təşkil etmək tövsiyə olunur. Dərslikdəki müxtəlif tapşırıqlar üzrə iş bütün siniflə, qruplarla və fərdi formada aparılır. Mövzuya aid əyani vəsaitlər tərtib və istifadə etmək tövsiyə olunur. Dərslik: səhifə 54, tapşırıq 1-7; səhifə 55, tapşırıq 1-6.

**DƏRS 10**

Mövzuya aid bilik və bacarıqların möhkəmləndirilməsi növbəti dərsdə də davam edir. Müəllim şagirdlərin bilik və bacarıqlarını nəzərə alıb,motivasiyanı dərsliyin 56-cı səhifəsindəki 4-cü tapşırıq üzrə qurur. Lövhədə tapşırığa uyğun cədvəli çəkir.

Müəllim şəklə əsasən istiqamətləndirici suallarla sinfə müraciət edir:

– "Şagirdlər neçə yaşıl şar doldurdular?"

– "Neçə sarı şar doldurdular?"

– "Şagirdlər cəmi neçə şar doldurdular?"

Fikirlər dinlənilir, müzakirə aparılır. Araşdırmanın nəticələri həm lövhədə, həm də dəftərdə yazılır. Dərslik; səhifə 56, tapşırıq 1-4

## Mövzu: Kütlə vahidi-kiloqram

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird kiloqramın kütlə vahidi olduğunu bilir.

**2.** Tərəzinin əşyaların kütləsini ölçmək və yaxud iki əşyanın kütləsini müqayisə etmək üçün istifadə edildiyini bilir.

**3.** Tərəzi şəkilləri ilə verilmiş sadə məsələlərdə əşyaların kütləsini tapmaq üçün toplama və çıxma bacarıqlarını tətbiq edir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, cütlərlə iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Tərəzi şəkilləri olan plakat, 2 kq alma, 1kq konfet, tərəzi şəkilləri çəkilmiş kartlar | Oxu, texnologiya |

**Motivasiya.** Müəllim yazı lövhəsindən üzərində müxtəlif tərəzi şəkilləri olan plakat asır və gətirdiyi gündəlik həyatda istifadə olunan əl tərəzisini,almanı,konfeti şagirdlərə təqdim edir, sonra şagirdlərə suallarla müraciət edir;

– Plakatdakı şəkilləri necə adlandırırlar?

– Tərəzidən nə üçün istifadə edirlər?

Suallar cavablandırılır. Bundan sonra müəllim şagirdlərdən birini yanına çağırır və konfet kütləsini ölçməsini xahiş edir.

– Konfetin kütləsi neçə kiloqram oldu?

– Almanın kütləsi neçə kiloqram oldu?

Fikirlər dinlənilir müzakirə aparılır. Ölçülən əşyaların kütlələri lövhəyə yazılır.

Sonra müəllim şagirdlərin diqqətini səhifə 57-ki tapşırıqlara yönəldir.

Fikirlər dinlənilir,müzakirə aparılır.

LAYİHƏ

**Tədqiqat sualı;** Qarşınızdakı tərəzi şəkillərindən tərəzilərin vəziyyətinə görə 1 kiloqram, 1 kiloqramdan ağır, 1 kiloqramdan yüngül əşyaların çəkildiyi şəkilləri seçin.

**Tədqiqatın aparılması.** Müəllim sinfi 3 qrupa bölüb, hər qrupa tədqiqat aparmaq üçün tapşırıqlar verir. Birinci qrupa 1 kiloqrama bərabər, ikinci qrupa 1 kiloqramdan ağır, üçüncü qrupa isə 1 kiloqramdan yüngül ifadələrinə uyğun olan tərəzi şəkillərini seçib ayırmalarını xahiş edir.

**1)** 1 banan və 1 kiloqramlıq çəki daşı olan tərəzi şəkli

**2)** 3 portağal və 1 kiloqramlıq çəki daşı olan tərəzi şəkli

**3)** Balqabaq və 1 kiloqramlıq çəki daşı olan tərəzi şəkli

**Tətbiqetmə;**Dərslik,səhifə 57,tapşırıq 1-3:səhifə 58,tapşırıq 1-2.

**Qiymətləndirmə.**Müşahidə əsasında aparılır.

### DƏRS 2.

Mövzuya aid öyrənmə prosesi növbəti dərsdə davam edir. 58-ci səhifədə verilmiş şəkil üzrə iş aparılır.

– Bananın kütləsi neçə kiloqramdan yüngüldür?

– Neçə dəfə 1 kq götürmək lazımdır ki, 2 kq alınsın?

Fikirlər dinlənilir, üzakirə aparılır.Dərslik səhifə 58, tapşırıq 1-3.

### DƏRS 3.

Öyrənmə prosesi mövzuya aid növbəti dərsdə davam edir. Bu zaman səhifə 58-ki tapşırıq verilmiş şəkil üzrə aparılır.

Araşdırmanın bu mərhələsi bütün siniflə birlikdə aparılır. Müəllim şagirdlərə sual və tapşırıqlarla yardım edir.

– “Qarpızın kütləsi neçə kiloqramdır?”

– “Yemişin kütləsi neçə kiloqramdır?”

Fikirlər dinlənilir, müzakirə aparılır. Məsələnin həllini şagirdlər həm lövhədə, həm də dəftərlərində qeyd edirlər. Dərslik səhifə 59, tapşırıq 1-4.

### DƏRS 4.

Öyrənmə prosesi mövzuya aid növbəti dərsdə davam edir.müəllim bütün sinfə 60-cı səhifədəki tapşırıq iş üzrə araşdırma aparır. Şagirdlərin diqqətini kitabdakı tərəzi şəklinə yönəldir. Müəllim şagirdlərə sualla müraciət edir.

– “Bir nar neçə alma ağırlığındadır?”

– “Bir heyva bəs neçə naringi ağırlığındadır?

Fikirlər dinlənilir, müzakirə aparılır. Dərslik, səhifə 60, tapşırıq 1-5.

## Mövzu: 12 ədədi (9 saat)

**Təlim məqsədləri:**

**1.** Şagird 12 ədədini tanıyır.

**2.** Şagird 12 ədədini yazır.

**3.** Şagird 12 dairəsində riyazi bacarıqlara yiyələnir.

LAYİHƏ

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, cütlərlə iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | 12 ədədi yazılmış plakat, Sap və muncuqlar, Səbət və almalar, kartlar | Oxu, texnologiya, həyat bilgisi, nitq inkişafı |

**Motivasiya.** Müəllim yazı lövhəsində 12 ədədi yazılmış plakat asır.Sonra şagirdləri 2 qrupa bölüb, 1-ci qrupa sap və 11 muncuğu, 2-ci qrupa isə səbət və 11 almanı təqdim edir. 1-ci qrupdan muncuqları sayıb sapa düzməyi, 2- ci qrupa isə almaları sayıb səbətə yığmağlarını xahiş edir. Sonra onlara sualla müraciət edir;

– Neçə muncuq saydınız?

– Bəs səbətdə neçə alma var?

Fikirlər dinlənilir. Bundan sonra müəllim şagirdlərə birlikdə saymağı təklif edir: 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12.

– Deməli qarşınızdakı əşyaların sayı 12-dir. Bu gün biz sizinlə 12 ədədi ilə tanış olduq. Uşaqlar, 12 ədədi, 1 onluq, 2 təklik deməkdir. Sonra müəllim şagirdlərin diqqətini 61-ci səhifədəki şəkillərə yönəldir.

**Tədqiqat sualı:** Şəkildəki əşyaları sayın və hansı ədədin alındığını deyin.

**Tədqiqatın aparılması:** Şagirdlərə müxtəlif əşyalar çəkilmiş şəkillər təqdim olunur və onlardan əşyaların sayılarını tapmaları xahiş olunur.

**1)** Qutunun içində 10 konfet, qıraqda 2 konfet

**2)** Boşqab içində 10 albalı, qıraqda 2albalı

**3)** Ağacda 10 armud, qıraqda 2 armud

**Tətbiqetmə:** səhifə 61, tapşırıq 1-3, səhifə 62, tapşırıq 1-3-dəki tapşırıqlar üzərində aparılır.

**Qiymətləndirmə:**Müşahidə əsasında aparılır.

### DƏRS 2.

Mövzuya aid növbəti dərsdə,öyrənmə davam edir. Bu zaman müəllim araşdırmanı bütün sinifə, tapşırıq 1 üzrə aparır. Müəllim tapşırığa uyğun hazırlanmış plakatı yazı lövhəsindən asır və şagirdlərin hər birinə 12 ədəd karandaşı sayıb partalarının üzərinə qoymalarını xahiş edir.Sonra müəllim şagirdlərə sualla müraciət edir.

– "Neçə karandaş götürdünüz?"

– "12 ədədində neçə onluq, neçə təklik var?"

Fikirlər dinlənilir, müzakirə aparılır. Bundan sonra müəllim 12 ədəd karandaşdan 1 ədədini çantalarına qoymalarını xahiş edir.

– "Bəs indi neçə karandaş qaldı?"

Fikirlər dinlənilir, müzakirə aparılır. Dərslik: səhifə 62, tapşırıq 4-5: səhifə 63, tapşırıq 1-3.

### DƏRS 3-4

Mövzuya aid növbəti dərsləri verilmiş nümunəyə uyğun təşkil etmək tövsiyə olunur.Araşdırmalar bütün siniflə, qruplarla, cütlərlə aparılır. Mövzuya uyğun kartoçkalar və başqa əyani vəsaitlər tərtib və istifadə etmək tövsiyə olunur. Dərslik:

LAYİHƏ

səhifə 63, tapşırıq 4-5: səhifə 64, tapşırıq 1-7.

**DƏRS 5.**

Mövzuya aid növbəti dərsdə araşdırma səhifə 65, tapşırıq 1 üzrə,bütün siniflə aparılır.Bunun üçün müəllim şagirdlərin diqqətini tapşırığın şəklinə yönəldir. Müəllim şagirdlərə sual və tapşırıqlarla yardım edir.

– "Sağ tərəfdə neçə pişik var?"

– "Sol tərəfdə neçə pişik var?"

– "Cəmi neçə pişik var?"

Fikirlər dinlənilir, müzakirə aparılır. Məsələnin həllini şagirdlər həm yazı lövhəsində, həm də dəftərlərində qeyd edirlər. Dərslik:səhifə 65, tapşırıq 1-4.

**DƏRS 6.**

Öyrənmə prosesi mövzuya aid növbəti dərsdə davam edir.Bu zaman müəllim araşdırmanı səhifə 66-da olan tapşırıq 4 üzrə aparır. Müəllim sinfi 2 qrupa bölür. Hər qrupa 11 kvadrat və 12 üçbucaq təqdim edir. Sonra müəllim şagirdlərdən kvadrat və üçbucaqları saymalarını xahiş edir.Bundan sonra müəllim qruplara tapşırıqlar verir.

1-ci qrupdan kvadratların sayını üçbucaqların sayı ilə bərabərləşdirmələrini xahiş edir.

2-ci qrupdan isə üçbucaqların sayını kvadratların sayı ilə bərabərləşdirmələrini xahiş edir.

Müəllim sual və tapşırıqlarla şagirdlərə yardım edir.

– "Necə etmək lazımdır ki, kvadratların sayı üçbucaqların sayı ilə bərabər olsun?"

– "Bəs necə etmək lazımdır ki, üçbucaqların sayı kvadratların sayına bərabər olsun?"

Fikirlər dinlənilir müzakirə aparılır. Tapşırığın həllini şagirdlər həm yazı lövhəsində, həm də dəftərlərində qeyd edirlər. Dərslik: səhifə 66, tapşırıq 1-5.

**DƏRS 7-8**

Mövzu üzrə növbəti dərsdə misal və məsələlər həll edilir. Tapşırıqlar üzrə araşdırmalar bütün siniflə, qruplarla, cütlərlə və fərdi aparılır. Şagirdlərin əldə etdikləri bilik və bacarıqların tətbiqi yoxlanılır. Mövzuya uyğun kartoçkalar və başqa riyazi vəsaitlər tərtib edib, istifadə etmək tövsiyə olunur. Dərslik:səhifə 68, tapşırıq 1

**DƏRS 9**

Mövzuya aid növbəti dərsdə,öyrənmə prosesi davam edir. Bu zaman müəllim araşdırmanı bütün siniflə, səhifə 68 tapşırıq 4 üzrə aparır. Müəllim mövzuya uyğun ədəd evini yazı lövhəsində çəkir və şagirdlərə suallarla müraciət edir.

– "5-in üzərinə neçə gəlsək 8 alınar?"

– "4-ün üzərinə neçə gəlsək 8 alınar?"

– "6-nın üzərinə neçə gəlsək 8 alınar?"

– "7-nin üzərinə neçə gəlsək 8 alınar?"

Fikirlər dinlənilir, müzakirə aparılır.

Bundan sonra müəllim şagirdlərdən hesablama aparmaq üçün, say çöplərindən, çötkədən istifadə etmələrini tapşırır. Şagirdlər növbə ilə yazı lövhəsində işləyir və sonra misalları dəftərlərində yazırlar. Dərslik: səhifə 68, tapşırıq 2 -5.

LAYİHƏ

## Mövzu: Həftə, ay, fəsil, il (2 saat)

**Təlim məqsədləri:**
- Şagird həftənin 7 gündən ibarət olunduğunu bilir.
- Şagird həftənin günlərini ardıcıl sayır.
- Şagird ilin 12 aydan ibarət olduğunu bilir.
- Şagird ilin aylarını ardıcıl sayır.
- Şagird ildə 4 fəsil olduğunu bilir.
- Şagird ilin fəsillərini ardıcıl sayır.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, cütlərlə iş, qruplarla iş | Beyin həmləsi, müzakirə | Həftənin günləri yazılmış plakat, ilin ayları yazılmış plakat, ilin fəsilləri çəkilmiş plakat, həftənin günləri yazılmış 7 ədəd kart, ilin ayları yazılmış kartlar, yay fəsli təsvir olunmuş kart, qış fəsli təsvir olunmuş kart | Oxu, texnologiya, həyat bilgisi, nitq inkişafı |

**Motivasiya.** Müəllim yazı lövhəsinə həftənin günləri yazılmış plakatı asır və şagirdlərə suallarla müraciət edir.

– Siz həftənin neçə günü məktəbə gedirsiniz?

– Siz bəs həftənin neçə günü istirahət edirsiniz?

Fikirlər dinlənilir.

Bundan sonra müəllim özü izah edir. Bir həftənin 5 günü məktəbə gəlirik, 2 günü isə istirahət edirik. Deməli, 1 həftədə 7 gün var. Uşaqlar günlər həftələri, həftələr ayları,aylar isə ili əmələ gətirir. 1 il 12 aydan ibarətdir. İlin ilk ayı yanvar, son ayı isə dekabrdır.Sonra müəllim şagirdin diqqətini ilin 4 fəsli təsvir olunmuş plakata yönəldir.

"İlin neçə fəsli var?"

"Hansı fəsilləri saya bilərsiniz?"

"Biz indi ilin hansı fəslindəyik?"

Fikirlər dinlənilir, müzakirə aparılır.

Bundan sonra müəllim özü izah edir. Bir ildə 4 fəsil,hər fəsildə isə 3 ay var.Qış,yaz, yay, payız bunlar ilin fəsilləridir.

Sonra müəllim şagirdlərin diqqətini 70 və 71-ci səhifədəki şəkillərə yönəldir:

**Tədqiqat sualı:** Bunun üçün müəllim sinifi 3 qrupa bölüb,hər qrupa öz tapşırığını verir. 1-ci qrupdan həftənin məktəbə getdikləri və istirahət etdikləri günlərini ayrı-ayrı qruplaşdırmalarını xahiş edir.

2-ci qrupdan ilin ilk və son ayını kartların içərisindən seçib ayırmalarını xahiş edir.

3-cü qrupdan isə qış və yay fəsillərini və aylarını tapmalarını xahiş edir.

**Tədqiqatın aparılması.** 1-ci qrupa həftənin günlərinin adları yazılmış kartlar, 2-ci qrupa ilin aylarının adları yazılmış kartlar, 3-cü qrupa isə qış və yay fəsilləri təsvir olunmuş şəkillər və bu fəsillərin adları yazılmış kartlar təqdim olunur. Şagirdlərdən onlardan tələb olunanları tapmaları xahiş olunur.



LAYİHƏ

**1)** Həftənin günləri yazılmış 7 ədəd kart.
**2)** İlin ayları yazılmış 12 ədəd kart.
**3)** Qış fəsli və yay fəslinin şəkilləri və fəsillərə uyğun ayların adları olan 6 ədəd kart.
**Tətbiqetmə.** Dərslik,səhifə 70-71.
**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

Öyrənmə mövzuya aid növbəti dərsdə davam edir. Bu zaman müəllim araşdırmanı bütün siniflə, qruplarla, fərdi formada aparır. Şagirdlərin əldə etdikləri bilik və bacarıqların tətbiqi yoxlanılır. Dərslik, səhifə 72, tapşırıq 1-5.

## Mövzu: 13 ədədi.

**DƏRS 1.**

**Təlim məqsədləri:**
**1.** Şagird 13 ədədini tanıyır və göstərir.
**2.** Şagird 13 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, cütlərlə iş, qruplarla iş | Beyin, həmləsi, müzakirə | Say çöpləri, ağ və göy düymələr iş dəftəri | Beyin həmləsi, həyat bilgisi, oxu, texnologiya |

**Motivasiya.** Müəllim stolun üstünə 10 ədəd göy rəngli və 3 ədəd qırmızı rəngli say çöpü qoyur. Əvvəl göy rəngli çöpləri saydırıb 1 dəstədə iplə bağlayır, sonra qırmızı çöpləri saydırır. Cəmi neçə çöp olduğunu soruşur. M: “ Stolun üstündə cəmi neçə say çöpü var? “(Ş: Stolun üstündə 13 say çöpü var ). M: “13 ədədini necə aldıq? “(Ş: 10-un üzərinə 3 əlavə etdik). Müəllim 10+3=13 misalını lövhədə yazır və bildirir ki, 10-ədədinin üzərinı 3 əlavə etdikdə 13 alınır.

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın və sayı 13 ədəd olan əşyanı göstərin.

**Tədqiqatın aparılması:** **Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünür. Hər qrupa eyni tipdə, eyni formada, lakin iki müxtəlif rəngdə əşyalar verilir və onlardan sayı 13 ədəd olanı göstərmək xahiş olunur.

Qarşınızdakı əşyalara baxın və sayı 13 ədəd olan əşyanı göstərin.
**a)** 10 ədəd ağ rəngli düymə.
**b)** 13 ədəd göy rəngli düymə.
**Tətbiqetmə:** Dərsliyin 6-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü çalışmalar işlənilir.
**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS 2.**

Müəllim lövhədən ipdə 10 göy muncuq və yanında 2 göy və 1 sarı muncuq olan şəkil asır. Şagirdlərdən şəkildə neçə göy, neçə sarı muncuq olduğu soruşulur. Sonra şəkildə cəmi neçə muncuq olduğu 13 ədədinin necə alındığı soruşulur. Müzakirə aparılır. Öyrənmə dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 7-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 3.**

Müəllim lövhədən 1-dən 13-ə qədər ardıcıl ədədlər yazılmış şəkil asır. Müəllim şagirdlərə 1-dən 13-ə qədər bir-bir artırmaqla saydırır. Şagirdlərdən 13 ədədinin verilmiş sırada neçənci yerdə olduğu və 13 ədədindən əvvəlki ədəd soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 8-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 4.**

Müəllim şagirdlərə yuxarıdan 1-ci məftilində 1 qırmızı kürə, yuxarıdan 2-ci məftilində 3 göy kürə olan say çötkəsi təqdim edir. Bu kürələrdən hansının onluğu, hansıların təkliyi ifadə etdiyi soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 9-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 5.**

Müəllim lövhədən üzərində göldəki 13 ördək balasından 1-nin sahilə çıxıb getdiyi təsvir olunan şəkil asır. Şəkildə cəmi neçə ördək balasının olduğu, 1 bala ördək getdikdən sonra göldə neçə ördək balasının qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 10-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 6.**

Müəllim lövhədən üzərində 13 dələ, 12 qoza şəkli olan plakat asır. Şəkildə neçə dələ, neçə qoza olduğu, hansının çox, hansının az olduğu soruşulur. Müzakirə və müqayisə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 11-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS 7.**

Müəllim lövhədən üzərində 13 kirpidən 3 kirpinin getdiyi təsvir olunan plakat asır. Şəkildə cəmi neçə kirpinin olduğu, 3 kirpi getdikdən sonra neçə kirpinin qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 12-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 8.**

Müəllim əlindəki 13 say çöpünü şagirdlərə saydırır və bu say çöplərinin hamısını stolun üstünə qoyur. Müəllim əlində neçə say çöpü qaldığını soruşur. Müzakirə aparılır. Öyrənmə dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 13-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 9.**

Müəllim lövhədən üzərində 1-ci qələmqabında 10 qələm, 2-ci qələmqabında 3 qələm olan şəkil asır. Hər qələmqabında ayrılıqda və iki qələmqabında birlikdə neçə qələm olduğu soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 14-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 10.**

Müəllim lövhədən üzərində qaçış yarışında 13 idmançıdan 3-nün zədələnib dayandığı şəkil olan plakat asır. Şəkildə nüçə idmançının olduğu, 3 idmançı zədələnib dayandıqdan sonra neçə idmançının finişə tərəf qaçdığı soruşulur.

Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 15-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

## Mövzu: Birrəqəmli və ikirəqəmli ədədlər.

**Təlim məqsədləri:**

**1.** Şagird birrəqəmli və ikirəqəmli ədədləri tanıyır və göstərir.
**2.** Şagird 13 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Qruplarla iş, cütlərlə iş | Beyin həmləsi, müzakirə | Kartlarda yazılmış rəqəmlər, rəngli karton, dairələr | Oxu, nitq inkişafı |

LAYİHƏ

**Motivasiya.** Müəllim lövhədən 1-dən 9-a qədər ədədlərin yazıldığı şəkil asır. Hər bir ədədi yazmaq üçün neçə rəqəmin lazım olduğu soruşulur. Müzakirə aparılır. Sonda müəllim yekunlaşdırma aparır. M: "Bir rəqəmlə ifadə olunan ədədlər ***birrəqəmli*** ədədlər adlanır. "Sonra müəllim müzakirəni 10, 11, 12, 13 ədədləri yazılmış şəkil təqdim edir. Bu ədədləri yazmaq üçün neçə rəqəm lazım olduğu soruşulur. Müzakirə aparılır. Sonda müəllim yekunlaşdırma aparır. M: "İki rəqəmlə ifadə olunan ədədlər ikirəqəmli ədədlər adlanır. Bu gün biz birrəqəmli və ikirəqəmli ədədləri öyrəndik."

**Tədqiqat sualı:** Qarşınızdakı kartlarda olan ədədlərdən ikirəqəmli ədədi tapıb göstərin.

**Tədqiqatın aparılması:** Şagirdlər iki qrupa bölünür. Hər qrupa üzərində müxtəlif ədəd olan iki kart verilir və onlardan ikirəqəmli ədəd olan kartı göstərmək xahiş olunur.

Qarşınızdakı kartlara baxın və ikirəqəmli ədəd olan kartı göstərin.

**a)** 9 rəqəmi yazılmış kart.

**b)** 10 ədədi yazılmış kart.

**Tətbiqetmə:** Dərsliyin 16-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

## Mövzu: 14 ədədi.

### DƏRS 1

**Təlim məqsədləri:**

**1.** Şagird 14 ədədini tanıyır və göstərir.

**2.** Şagird 14 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
| İnduktiv | Qruplarla iş | Beyin həmləsi, müzakirə | Qutuda 10 yumurta və yanında, 4 yumurta olan plakat, say çöpləri | Müzakirə, nitq inkişafı |

**Motivasiya.** Müəllim yazı lövhəsindən üzərində qutuda 10 yumurta və yanında yerdə 4 yumurta şəkli olan plakat asır. Şagirdlərdən qutuda neçə yumurta, yerdə neçə yumurta və cəmi neçə yumurta olduğu soruşulur. Müzakirə aparılır. M: "14 ədədi necə alındı? "(Ş: 10 ədədinin üzərinə 4 ədədini əlavə etdik). Müəllim yazı lövhəsində 14 ədədini və 10+4=14 misalını yazır. M: "Bu gün biz 14 ədədini öyrəndik."

**Tədqiqat sualı:** Qarşınızdakı əşyalara baxın, sayı 14 ədəd olan əşyanı göstərin.

**Tədqiqatın aparılması: Tapşırıq 1.** Şagirdlər iki qrupa bölünürlər. Hər qrupa eyni tipdə, eyni formada, iki müxtəlif rəngdə əşyalar verilir və onlardan 14 ədəd olan əşyanı göstərmək xahiş olunur.

LAYİHƏ

Qarşınızdakı əşyalara baxın və sayı 14 ədəd olan əşyanı göstərin.

**a)** 7 ədəd sarı leqo.

**b)** 14 ədəd yaşıl leqo.

**Tətbiqetmə:** Dərsliyin 16-cı səhifəsində olan 1-ci, 2-ci, 3-cü çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 2.**

Müəllim hər bir şagirdin qarşısına 13 say çöpü qoyur və bu çöpləri sayıb, neçə ədəd olduğunu demələrini xahiş edir. Sonra müəllim hər şagirdə 1 çöp də verir və qarşılarında neçə say çöpü olduğunu demələrini xahiş edir. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 17-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 3.**

Müəllim yazı lövhəsindən 1-dən 14-ə qədər ədədlərin yazılmış plakatı asır. Müəllim hər bir şagirdə 1-dən 14-ə qədər bir-bir artırmaqla ədədləri saydırır. Şagirdlərdən verilmiş sırada 14 ədədinin neçənci yerdə olduğu və 14 ədədindən əvvəl hansı ədəd soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 18-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 4.**

Müəllim yazı lövhəsindən çəmənlikdəki 14 kəpənəkdən 1-nin uçub getdiyi təsvir olunan plakat asır. Şagirdlərdən şəkildə cəmi neçə kəpənək olduğu, 1 kəpənək uçub getdikdən sonra neçə kəpənəyin qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 19-cu səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 5.**

Müəllim yazı lövhəsindən bostanda 12 qarpız və yeşikdə 2 qarpızın təsvir olunduğu plakat asır. Şagirdlərdən 2 qarpız dərilməmişdən əvvəl bostanda neçə qarpız olduğu və 2 qarpız dərildikdən sonra bostanda neçə qarpız qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 20-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənilir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**DƏRS 6.**

Müəllim yazı lövhəsindən üzərində 13 ədəd göy rəngli və 1 ədəd qırmızı rəngli dairə şəkli olan plakat asır. Şagirdlərdən şəkildə neçə göy, neçə qırmızı dairə olduğu, cəmi neçə dairə olduğu, 1 qırmızı dairəni götürdükdən sonra neçə dairə qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 21-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 7.**

Müəllim yazı lövhəsindən 13 yemiş və 14 qarpız şəkli olan plakat asır. Şagirdlərdən şəkildə neçə yemiş olduğu, neçə qarpız olduğu, hansının çox, hansının az olduğu soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 22-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 8.**

Müəllim hər bir şagirdə 14 karandaş təqdim edir və onları sayıb partanın üstünə qoymalarını xahiş edir. Sonra müəllim şagirdlərdən partanın üstündəki karandaşların hamısını əllərinə götürmələrini xahiş edir. Partanın üstündə neçə karandaş qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 23-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 9.**

Müəllim yazı lövhəsindən üzərində budaqda 11 parabüzən və 3 parabüzənin uçub getdiyi təsvir olunan plakat asır. Şagirdlərdən şəkildə cəmi neçə parabüzənin olduğu, 3 parabüzən uçub getdikdən sonra budaqdq neçə parabüzənin qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 24-cü səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**DƏRS 10.**

Müəllim yazı lövhəsindən məftildə 4 qaranquşun olduğu və 10 qaranquşun uçub getdiyi təsvir olunan plakat asır. Şagirdlərdən şəkildə cəmi neçə qaranquş olduğu və 10 qaranquş uçub getdikdən sonra neçə qaranquşun qaldığı soruşulur. Müzakirə aparılır. Öyrənmə prosesi dərs 1-ə analoji olaraq aparılır.

**Tətbiqetmə:** Dərsliyin 25-ci səhifəsində olan 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci çalışmalar işlənir.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** Toplama əməlinin komponentləri

**DƏRS 1.**

**Təlim məqsədləri:**

**1.** Şagird toplama əməlinin komponentlərini tanıyır və izah edir.

**2.** Şagird 14 dairəsində riyazi bacarıqlara yiyələnir.

| Dərsin tipi | İş forması | İş üsulu | Resurslar | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|
